HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 24 (714) ■ 25 iyun 2014 www.vergiler.az Qiyməti: 40 qəp.


# Prezident İlham Əliyevin Fransaya işgüzar səfəri

*İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasına işgüzar səfərə gəlmişdir. Səfər çərçivəsində o, iyunun 24-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının sədri xanım Ann Brasör ilə görüşmüşdür. Dövlətimizin başçısı Avropa Şurasının Fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.*




Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunmuşdur. Azərbaycanda insan haqları və demokratikləşmə sahəsində görülən işlər, o cümlədən Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə fikir mübadiləsi aparılmışdır.

Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Strasburqda Avropa Şurasının baş katibi Torbörn Yaqland ilə görüşmüşdür. Görüşdə Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə prioritet təşkil edən məsələlər müzakirə olunmuşdur.

Prezident İlham Əliyev son illərdə Azərbaycanda gedən demokratik inkişaf prosesləri və bu sahədə aparılan islahatlar barədə məlumat vermişdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İyunun 24-də Strasburqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daha bir görüşü olmuşdur. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilman ilə görüşdə Azərbaycanın hüquq mühafizə orqanları ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi arasında əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

# Dövlətimizin başçısı Avropa Şurası Parlament Assambleyasında çıxış etmişdir

*İyunun 24-də Avropa Şurası Parlament Assambleyasında yay sessiyası işinə başlamışdır. Ölkəmizin Avropa Şurasındakı sədrliyi ilə ilk sessiyada çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın həm siyasi, həm iqtisadi islahatlar sahəsində böyük inkişaf yolu keçdiyini, qısa müddət ərzində ciddi uğurlara nail olduğunu diqqətə çatdırmışdır.*

Azərbaycanda yüksək templə inkişafın getdiyini və aparılan islahatların cəmiyyət tərəfindən tam dəstəkləndiyini avropalı parlamentarilərə çatdıran Azərbaycan Prezidenti daha sonra ölkəmizdə insan azadlığı və hüquqlarının qorunmasına toxunaraq bu sahədə heç bir problemin olmadığını bildirmişdir: «Fundamental azadlıqlar məsələsinə gəldikdə, Azərbaycanda bütün bunların hamısına riayət olunur. Sərbəst siyasi fəaliyyətlə məşğul olmaq, siyasi azadlıqlar mövcuddur. Bizim ölkədə yüzlərlə siyasi institut, siyasi partiya fəaliyyət göstərir. KİV tam azaddır və Azərbaycanda gündəlik, həftəlik, aylıq çoxlu sayda qəzet və jurnal çap olunur, ölkədə çoxlu sayda televiziya kanalları, eləcə də regional kanallar fəaliyyət göstərir. Bundan başqa, ölkəmizdə internet tam azaddır və əhalinin 70 faizindən çox internetdən istifadə edir. Azad internetin olduğu, senzuranın olmadığı şəraitdə biz heç cür söz və ifadə azadlığını məhdudlaşdıra bilmərik. Əksinə, KİV-in azadlığını daha da genişləndiririk. Çünki mətbuatın azad olması demokratiya deməkdir və bu, hökumətin hansısa çatışmazlıqlar üzərində qüvvəsini cəmləşdirməsinə yardım etmiş olur».

Azərbaycan Prezidenti ölkəmizdə demokratik islahatlarla iqtisadi islahatların paralel aparıldığını, din və etiqad azadlığının mövcud olduğunu diqqətə çatdırmışdır: «Bizim cəmiyyətimiz multietnik və çoxmillətlidir, müxtəlif dinlərin təmsilçiləri dinc və əmin-amanlıq şəraitində birgə yaşayır. Bu, əsrlər boyu belə olub. Multikultiralizm də bizim üçün prioritet təşkil edən məsələlərdəndir. Biz Avropa Şurasındakı sədrliyimiz dövründə fəaliyyətimizi bu məsələnin üzərində də cəmləşdirəcəyik. Çox təəssüf ki, indi dünyanın bir çox bölgəsində, istər bizim qonşuluğumuzda, istərsə də Yaxın Şərq kimi regionlarda narahatlıq yaradan tendensiyalar mövcuddur. Bunlar bölücülük və nifrət kimi tendensiyalardır. Biz bu problemləri həll etməliyik».

Azərbaycan Prezidenti bildirmişdir ki, bizim əsas problemlərimizdən biri beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərimizin, Azərbaycanın ərazi bütövlüyünün pozulmasıdır: «Ermənistanla Azərbaycan arasındakı münaqişə bütün regionu təhlükə ilə üzləşdirir. Bu münaqişəyə «dondurulmuş» münaqişə deyirlər, amma bu, doğru deyil, o heç də dondurulmuş deyil. Amma bu münaqişəni dondurmaq mümkündür və bunun yolu da münaqişəni həll etməkdir. Dağlıq Qarabağ Azərbaycanın tarixən ayrılmaz bir hissəsidir , azərbaycanlıların bu regionda min illər, əsrlər boyu yaşamışlar, ermənilər bura yalnız 200 il əvvəl gəliblər. Bizim Dağlıq Qarabağdakı heykəllərimiz, mədəni irsimiz çox təəssüf ki, dağıdılıb və dağıdılmaqdadır. Bütün bunları Ermənistanın işğalçı ordusu həyata keçirib. Bu münaqişə ona gətirib çıxarıb ki, beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmuş ərazilərimizin 20 faizi işğal altındadır. Erməni bandaları tərəfindən etnik təmizləmələr aparılıb və bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvalarından qaçqın və məcburi köçkün düşüb. Dağlıq Qarabağ ətrafında yerləşən 7 rayon 20 ildən çoxdur ki, işğal altındadır. Bu, ədalətsizlikdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi bir hissəsidir, mən deyərdim ki, bütün Azərbaycanın əmələ gəldiyi bir bölgədir və bu, bizim xalqımıza aid bütün coğrafi adlarda özünü göstərir. Dağlıq Qarabağ birmənalı olaraq Azərbaycanın tərkib hissəsidir və Ermənistandan başqa bütün dünya ölkələri bu ərazilərin Azərbaycana məxsus olduğunu qəbul edir. Dağlıq Qarabağda hökm sürən rejimi də heç kim qəbul etmir. BMT-nin Təhlükəsizlik Şurası bununla bağlı 4 qətnamə qəbul edib və işğalçı erməni qüvvələrinin işğal edilmiş ərazilərdən çəkilməsini tələb edib. Lakin çox təəssüf ki, dediyim kimi, bu qətnamələrdəki müddəaların heç biri həyata keçirilmədi. Bu da məhz həmin ikili standartlar siyasətinin nəticəsidir. Bəzən elə hallar olur ki, BMT-nin qətnamələri bir neçə saat ərzində yerinə yetirilir. Bizim bu məsələmizdə isə artıq 20 il vaxt keçib, amma ortada heç bir mexanizm yoxdur ki, bunu həyata keçirsin. Ermənistan bu əraziləri tərk etmək istəmir, status-kvonu saxlamaq istəyirlər, bu da bütün beynəlxalq vasitələrin, Minsk Qrupunun səyləri ilə ziddiyyət təşkil edir. BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü - Rusiya, ABŞ və Fransa hər dəfə qeyd ediblər ki, mövcud status-kvo qəbuledilməzdir, Ermənistan işğal etdiyi ərazilərdən işğalçı qüvvələrini çıxarmalıdır. Amma bütün bunlara əməl olunmur, beynəlxalq hüquqa, dünyanın aparıcı ölkələrinin çağırışlarına, AŞPA-nın qəbul etdiyi qətnamələrə, xüsusilə də 2005-ci ildə qəbul edilmiş 1416 saylı qətnaməyə əməl olunmur. Belə bir qətnamə Avropa Parlamenti tərəfindən də qəbul olunmuşdu. Eyni zamanda ATƏT-in qərarı var və bütün bu sənədlər işğal edilmiş ərazilərdən Ermənistanın çıxmasını tələb edir. Çox təəssüf ki, münaqişə hələ də öz həllini tapa bilmir».

Azərbaycanın AŞ PA-ya sədrliyi dövründə qaldıracağı məsələlər haqqında danışan Prezident İlham Əliyev bildirmişdir ki, regiondakı ölkələrə fərqli yanaşmalar aradan qaldırılmalı və ikili standart məsələsi mütləq şəkildə rədd edilməlidir. Dövlətimizin başçısı qeyd etmişdir ki, Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyinin prioritetlərindən biri də beynəlxalq təşkilatların qəbul etdiyi qətnamə və qərarların həyata keçirilməsidir: «Azərbaycanla bağlı da bir neçə qətnamə və qərarlar var: bunlardan əsası BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi qətnamələrdir. Lakin praktikada bunların heç biri həyata keçirilmədi. Buna görə də, fikrimcə, beynəlxalq səviyyədə qəbul edilmiş qətnamələrin implimentasiya mexanizminin yaradılması olduqca vacib məsələdir. Belə bir mexanizmi biz hamımız birlikdə tərtib etməliyik. Yoxsa bu qətnamələr öz mövcudluğunu və əhəmiyyətini itirəcək. Biz tövsiyə edərdik ki, beynəlxalq hüququn norma və prinsiplərinin aliliyi təmin edilsin. Bu, çox əhəmiyyətli məsələdir».

Sonra Prezident İlham Əliyev avropalı deputatların maraqlandıran suallarını cavablandırmışdır.

**rəsmi xronika**

# Azərbaycan Prezidenti Rusiya Federasiyasının nümayəndə heyətini qəbul etmişdir

İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.

Hər iki ölkə arasında ikitərəfli münasibətlərin uğurla və dinamik şəkildə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev xarici işlər naziri Sergey Lavrovun bu səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirmişdir. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığını, Azərbaycan ilə Rusiyanın bütün sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğulamışdır. Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə ötənilki səfərinin münasibətlərimizin inkişafına təkan verdiyini qeyd etmiş, həmin səfər zamanı aparılan danışıqların və fikir mübadiləsinin əməkdaşlığımızın sonrakı inkişafı baxımından çox səmərəli olduğunu bildirmiş, xalqlarımızın və ölkələrimizin rifahı naminə münasibətlərimizin bundan sonra da inkişafı üçün hər iki ölkənin səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etmişdir.

Sergey Lavrov Rusiya Prezidenti Vladimir Putinin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırmış, Rusiya dövləti başçısının ölkəmizə ötənilki səfərini və səfər zamanı keçirilən görüşləri məmnunluqla xatırlatmışdır. S.Lavrov Azərbaycan Prezidenti İlham Əliyevin ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıması, iqtisadi, investisiya, humanitar və digər sahələrdə əməkdaşlığın uğurla davam etməsi barədə fikirləri ilə şərik olduqlarını bildirərək Azərbaycan ilə Rusiyanın regional və beynəlxalq səviyyədə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırmışdır.

Müzakirələr zamanı Xəzəryanı ölkələrin qarşıdakı sammiti, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan və Ermənistan prezidentlərinin ötənilki görüşü, ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə dair fikir mübadiləsi aparılmışdır.

◆◆◆

İyunun 19-da Prezident İlham Əliyev Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulamışdır. Prezident İlham Əliyev hərbi-texniki sahədə konstruktiv əməkdaşlığımızın daha da genişləndiyini və yaxşı perspektivlərə malik olduğunu diqqətə çatdırmış, Rusiya-Azərbaycan birgə komissiyasının həmsədri kimi ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi işinə verdiyi töhfəni qeyd etmişdir. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin böyük önəm daşıdığını vurğulayaraq, Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin artmasını strateji əməkdaşlığımızın inkişaf etdirilməsi istiqamətində ölkələrimizin birgə səylərinin yaxşı nəticəsi kimi dəyərləndirmişdir.

Dmitri Roqozin Azərbaycan ilə Rusiya arasında iqtisadi, ticarət və digər sahələrdə münasibətlərimizin inkişafına dair Prezident İlham Əliyevin söylədiyi fikirləri yüksək qiymətləndirdiyini bildirmiş, Rusiya tərəfinin Azərbaycan xalqı və dövləti ilə münasibətlərə hörmətlə yanaşdığını qeyd edərək mövcud əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etmiş və Rusiya-Azərbaycan birgə komissiyasının həmsədri kimi bu istiqamətdə səylərini əsirgəməyəcəyini vurğulamışdır.


2 Xarici ekspertlər Vergilər Nazirliyində olmuşlar

3 IOTA forumunda «İri vergi ödəyiciləri» mövzusu müzakirə edilmişdir

4 İnsan hüquq və azadlıqlarının qorunması Vergilər Nazirliyinin qarşısında duran əsas prioritetlərdəndir

5 Təbliğat müasir medianın tələblərinə uyğun qurulmalıdır

# Vergilər naziri Fazil Məmmədov Xaçmazda vətəndaşları qəbul etmişdir



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.*

Növbəti belə qəbul iyun ayının 20-də vergilər naziri Fazil Məmmədov tərəfindən Xaçmaz şəhərindəki Vergi Ödəyicilərinə Xidmət Mərkəzində Xaçmaz, Quba, Qusar və Şabran rayonlarından olan vətəndaşlar üçün keçirilmişdir. Vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi, vergi orqanlarına işə qəbul və digər məsələlərlə bağlı 50-dək vətəndaş vergilər nazirinə müraciət etmişdir.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış imkandan razılıqlarını bildirmişlər.

# Xarici ekspertlər Vergilər Nazirliyində olmuşlar

İyunun 23-dən 25-dək Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Almaniya Əməkdaşlıq Təşkilatının (GİZ) birgə təşəbbüsü ilə mülki hüquq sahəsində beynəlxalq səviyyədə tanınmış ekspertlər - Vismar Universitetində Şərq İnstitutunun tədqiqat üzrə direktoru, post-sovet ölkələri üzrə hüquq məsləhətçisi, professor Hans-Joachim Schramm, Bremen Universitetinin sabiq professoru, post-sovet ölkələri üzrə hüquq məsləhətçisi Rolf Knieper və «Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi barədə təkliflər» layihəsinin beynəlxalq təcrübə və milli qanunvericilik nəzərə alınmaqla hərtərəfli araşdırılması və layihə ilə bağlı rəyin hazırlanması məqsədi ilə yaradılmış komissiya üzvlərinin, habelə yerli ekspertlərin iştirakı ilə işçi görüşlər keçirilir.

Tədbirin əvvəlində vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov Azərbaycan Respublikasında mövcud olan ictimai münasibətlərin inkişaf sürətini nəzərə alaraq qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində Mülki Məcəllənin fiziki və hüquqi şəxslərlə bağlı fəsillərinə müvafiq dəyişikliklərin edilməsinin zəruri olduğunu qeyd etmişdir. Görüş zamanı hüquqi şəxslərin təşkilati və hüquqi formaları, onların ictimai münasibətlərdə statusu, hüquqi şəxslərdə idarəçilik, onların nizamnamə kapitalının həddi, təsisçilərinin məsuliyyəti, sahibkarlıq fəaliyyətinin mahiyyəti, fərdi sahibkarın statusu və s. məsələlər barədə qabaqcıl dünya dövlətlərinin təcrübəsi, xarici ekspertlərin bu sahədə fikirləri öyrənilmiş və geniş müzakirələr aparılmışdır.

Gələcəkdə də bu sahələr üzrə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində fikir mübadiləsinin davam etdirilməsi, mövcud ictimai münasibətlər kontekstində uğurlu hesab olunan təcrübələrin tətbiqi, fiziki və hüquqi şəxslərlə bağlı mülki qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Mülki Məcəlləyə dəyişikliklər layihəsinin hazırlanması nəzərdə tutulur.

# Vergilər Nazirliyinə işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsi başa çatmışdır



Bu il dövlət vergi orqanlarında işə qəbul zamanı test imtahanında iştirak etmək üçün elektron ərizə ilə müraciət edən 2303 nəfərin 1931-nin sənədləri qəbul olunmuş, imtahanda 1390 nəfər iştirak etmişdir. Sayca 9-cu olan bu müsabiqədə 76 nəfər namizəd növbəti mərhələyə buraxılmışdır.

Test imtahanından sonra vergi orqanlarına işə qəbul olunmaq üçün müsabiqənin 2-ci mərhələsi - namizədlərlə müsahibə keçirilmişdir.

Müsahibəni Vergilər Nazirliyinin Müsabiqə Komissiyası həyata keçirmişdir. Müsahibə hər bir namizədlə fərdi qaydada aparılmış, onların bilik və bacarıqları, ümumi dünyagörüşü yoxlanılmışdır. Hər iki mərhələni uğurla başa vurmuş 58 nəfər namizəd Vergilər Nazirliyinin kadr ehtiyatına daxil edilmişdir. Xatırladırıq ki, indiyədək keçirilmiş 9 belə müsabiqə nəticəsində 1000 nəfərdən çox gənc kadr vergi orqanlarında işlə təmin edilmişdir.

# Şikayətlərin sayı azalmışdır

2014-cü ilin may ayı ərzində dövlət vergi orqanlarına vətəndaşlardan ümumilikdə 8227 müraciət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1947 müraciət və ya 23,7% çoxdur.

Daxil olmuş müraciətlərdən 8073-ü (və ya 98,1%-i) ərizə, 137-si (və ya 1,7%-i) şikayət, 17-si (və ya 0,2%-i) təklif xarakterli olmuşdur. Müraciətlərin 33%-i müxtəlif arayışların alınması, 30,7%-i kameral vergi yoxlamaları, 11,8%-i səyyar vergi yoxlamaları, 7%-i vergi borcları, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,3%-i korrupsiya hüquqpozmaları, 16,%-i isə digər məsələlərlə bağlı olmuşdur.

Ümumilikdə müraciətlərin 71%-i müsbət həll olunmuş, 14%-i barədə müvafiq izahat verilmiş, 4%-i əsassız sayılmış, 1,1%-i qismən həll olunmuş, 0,9%-i aidiyyəti üzrə göndərilmiş, 9%-i isə icradadır.

Hesabat dövründə vergi orqanlarına daxil olmuş şikayətlərin 51-i eyni, 8-i təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 78 məsələ barədədir. Şikayətlərin faktiki sayından 41%-i operativ nəzarət, 29,5%-i kameral hesablama, 20,5%-i audit, 9%-i isə digər sahələr üzrədir. Daxil olan faktiki şikayətlərin sayı ötən ilin may ayına nisbətən azalmışdır.

Ümumilikdə şikayətlərin 39-u (və ya 28,5%-i) əsassız sayılmış, 31-i (və ya 22,6 %-i) barədə müvafiq izahat verilmiş, 12-si (və ya 8,8%-i) müsbət həll olunmuş, 7-si (və ya 5,1 %-i) aidiyyəti üzrə göndərilmiş, 48-i (və ya 35%-i) isə icradadır.

Ay ərzində nazirliyin aparatına 757 müraciət, o cümlədən 652 ərizə, 102 şikayət, 3 təklif daxil olmuş, 22 şikayətin icrası xüsusi nəzarətə götürülmüşdür. Daxil olan şikayətlərin 47-si eyni, 6-sı təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 49 məsələ ilə bağlıdır. Ötən ilin may ayı ilə müqayisədə nazirliyin aparatına daxil olan müraciətlərin ümumi sayı 66,7% artmış, şikayətlərin faktiki sayı isə 10,9% azalmışdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından nazirliyin aparatına 43 müraciət, o cümlədən 20 ərizə və 23 şikayət daxil olmuşdur.

# Vergilər Nazirliyində Dünya Bankı nümayəndələri ilə görüş keçirilmişdir

*İyun ayının 18-də Vergilər Nazirliyində Dünya Bankının Azərbaycan üzrə baş iqtisadçısı xanım Mona Prasadın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş zamanı vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov son illərdə ölkəmizin vergi sistemində aparılan islahatlar haqqında qonaqlara geniş məlumat vermişdir.*



Bildirilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində vergi inzibatçılığının bütün sahələrində müasir İKT-nin tətbiqi, inzibati idarəetmənin avtomatlaşdırılması və keyfiyyətcə yaxşılaşdırılması sayəsində qısa müddətdə vergi xidmətinin fəaliyyətində ciddi uğurlar əldə edilmişdir. Bunu, ilk növbədə, qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan müasir innovativ vergi inzibatçılığının qurulması nəticəsində vergi ödəyiciləri tərəfindən rəğbətlə qarşılanan elektron xidmətlərin göstərilməsi sahəsində görmək mümkündür. N.Əmirov vergi sistemində və vergi inzibatçılığında aparılan islahatların davam etdiriləcəyini, vergidən yayınma hallarının qarşısının alınması üçün daha səmərəli nəzarət mexanizmlərinin tətbiq olunacağını, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin keyfiyyətinin daha da artırılacağını, çeşidlərinin genişləndiriləcəyini diqqətə çatdırılmışdır.

Qeyd edilmişdir ki, hazırda qarşıda duran prioritet vəzifələrdən biri də nağdsız ödənişlər üçün müvafiq infrastrukturun yaradılması, bu sahədə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi və əhalinin fəallığının artırılmasıdır. Nağdsız ödənişlər infrastrukturunun təkmilləşdirilməsi məqsədilə bu sahədə ən qabaqcıl beynəlxalq təcrübə araşdırılaraq təhlil edilir, yeni nəsil ödəniş cihazlarının tətbiqi imkanları qiymətləndirilir. Vergi ödəyicilərinin və onların nümayəndələrinin nağdsız ödənişlərin əhəmiyyəti və əlverişliliyi barədə maarifləndirilməsinin təmin edilməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirilir.

Bildirilmişdir ki, 2014-cü ildən Vergilər Nazirliyi bələdiyyələrin vergi informasiya sisteminin avtomatlaşdırılması məqsədilə proqram təminatı hazırlanmış 8 bələdiyyədə yerli ödəyicilərin (bələdiyyə vergi və ödənişləri üzrə) elektron uçotunun tətbiqi ilə bağlı pilot layihənin reallaşdırılmasına start vermişdir. «Cybernet» şirkəti tərəfindən hazırlanmış bu sistemin tətbiqi bələdiyyə gəlirlərinin ödənişi ilə bağlı bütün əməliyyatların avtomatlaşdırılmasına imkan verir və bələdiyyə vergi ödəyiciləri olan fiziki şəxslər üçün vergiləri bələdiyyələrə gəlmədən asanlıqla ödəmək üçün geniş imkanlar açır.

Xanım Mona Prasad Azərbaycanın vergi sistemində aparılan islahatların, xüsusilə müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, elektron xidmətlər sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı görülən işlərin region ölkələri ilə müqayisədə daha sürətlə inkişaf etdiyini, mütərəqqi informasiya texnologiyalarına əsaslanan layihələrin genişləndirilməsini müsbət hal kimi qiymətləndirərək Dünya Bankı ilə Azərbaycan hökuməti arasında qarşılıqlı əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğulamışdır.

Görüşdə vergi siyasəti və inzibatçılığı üzrə potensial əməkdaşlıq sahələri, həmçinin iqtisadiyyatda nağdsız əməliyyatların stimullaşdırılması və bələdiyyələrdə elektron qeydiyyat sisteminin həyata keçirilməsi sahəsində Dünya Bankı tərəfindən təklif olunan texniki yardım, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

# Əmək müqaviləsinin bağlanması şərtləri təkmilləşdirilir

*Əmək Məcəlləsində dəyişikliklər edilməsi ilə bağlı qanunun tətbiqi barədə ölkə başçısının fərmanına uyğun olaraq, əmək münasibətləri əmək müqaviləsi bağlandığı andan deyil, elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranacaq.*

Əmək Məcəlləsinə edilən dəyişikliklər məşğul əhalinin əmək hüquqlarının müdafiəsini təmin etməyə və qeyri-leqal əmək fəaliyyətinin qarşısının alınmasına istiqamətlənib.

Təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməli olacaqlar. Bunun nəticəsində bütün işəgötürənlər, eləcə də işçilər imzaladıqları müqavilələr barədə məlumatları əmək müqaviləsi bildirişləri vasitəsi ilə real vaxt rejimində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemindən əldə edə biləcəklər. Elektron informasiya sistemi əmək münasibətləri sahəsində dəqiq uçot verəcək ki, bu da işəgötürənin məsuliyyətinin artırılmasına səbəb olacaq.

Bildirək ki, əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi və qeydiyyata alınması prosedurlarını əks etdirən müvafiq qaydalar bir müddət öncə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanaraq təsdiq üçün hökumətə təqdim edilmişdi. Nazirlər Kabineti əmək müqaviləsi bildirişinin formaları və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydaları artıq təsdiqləyib. Qaydalara görə, elektron informasiya sisteminə əmək müqaviləsi bildirişinin daxil edilməsi «Elektron hökumət» portalı vasitəsilə həyata keçirilir. Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi «Elektron hökumət» portalının gücləndirilmiş elektron imza ilə daxil olmağa imkan verən autentifikasiya vasitələrindən istifadə etməklə bilavasitə işəgötürən tərəfindən və ya «Elektron hökumət» portalında yerləşdirilmiş «Səlahiyyətli şəxsin qeydiyyatdan keçirilməsi» xidməti vasitəsilə işəgötürənin səlahiyyət verdiyi şəxslər tərəfindən həyata keçirilir. Əmək müqaviləsində dəyişiklik edilməsi ilə bağlı müəyyən məlumatlar elektron informasiya sisteminə daxil edildikdən sonra məlumat bazasında saxlanılır və bununla bağlı bir iş günündən gec olmayaraq işəgötürənə məlumat verilir. İşəgötürən məlumatı çap edərək mühafizə edilən aidiyyəti əmək müqaviləsi ilə birlikdə beş il müddətinə saxlamalı və işçinin müraciəti əsasında bildirişin və məlumatın surətini ona təqdim etməlidir.

Qaydalara görə, işçinin onunla bağlı qeydiyyata alınmış müvafiq əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etmək imkanları elektron informasiya sistemi vasitəsilə təmin olunur. Hər bir işçi özünə aid əmək müqaviləsi bildirişinin məlumatlarını «Elektron hökumət» portalının mövcud autentifikasiya vasitələrinin köməyi ilə əldə edə bilər.

Elektron informasiya sistemi işəgötürənlərin və işçilərin digər işəgötürən və işçilər barədə sistemdən məlumat almasına imkan yaratmır.

Xatırlatmaq yerinə düşər ki, qanun qüvvəyə mindiyi günədək yazılı bağlanılmış və qüvvədə olan əmək müqavilələrinə dair bildirişlərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində qeydiyyata alınması üçün işəgötürənlərə 1 iyul 2014-cü ilədək vaxt verilmişdi. Bildirişlər bu tarixə qədər elektron informasiya sisteminə daxil edilməli idi - əks halda işəgötürənlər cərimələnəcəkdilər. Lakin qeydiyyat formasının təsdiqlənməsi yubandığına görə bu müddət uzadılacaq. Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun sözlərinə görə, qeydiyyat formasının təsdiqlənməsi ilə bağlı Nazirlər Kabineti qərarı iyunun 6-da qəbul edib: «Bu səbəbdən də qüvvədə olan əmək müqavilələrinin qeydiyyatı üzrə lazım olan bütün tədbirlərin görülməsi üçün sahibkarlara 3 aylıq möhlət veriləcək».

**AYTƏN**

## Tədris-Metodiki Şuranın iclası

Vergilər Nazirliyi yanında Tədris-Metodiki Şuranın iyunun 19-da keçirilmiş növbəti iclasında Vergilər Nazirliyinin yeni «Tədris konsepsiyası» və «Peşə hazırlığı qaydaları» barədə məlumat verilmiş, təlim proseslərində müasir metodların tətbiqi, təlimlərin qiymətləndirilməsi üsulları, təlimçilərin təliminin təşkili məsələləri və kuratorluq (himayədarlıq) təlimlərinin keçirilməsinə dair metodiki tövsiyələrin layihəsi müzakirə olunmuşdur.

İclas zamanı elektron, sosial və mobil təhsil üsullarından istifadənin genişləndirilməsi, bu üsulların təşkili və səmərəliliyi barədə fikir mübadiləsi aparılmış, təlimlərin keçirilməsində «bazar yeri (market place)», «müsahibə» (interview)», «sürətli məlumat (speed dating)», «videotəqdimat (video presentation)» kimi yeni təlim metodlarının tətbiqi xüsusiyyətləri barədə məlumat verilmiş, bu metodların təlim praktikasında istifadə edilməsi tövsiyə olunmuşdur. Müzakirələrdə təlimlərin səmərəliliyinin və nəticəliliyinin qiymətləndirilməsi məsələsinə xüsusi diqqət yetirilmiş, qiymətləndirmənin aparılması metodları nəzərdən keçirilmişdir.

## İşçi qrupun iclası keçirilmişdir

Fransanın paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən «Vergi siyasətinin təhlili və vergi statistikası» üzrə işçi qrupun 87-ci iclası keçirilmişdir. İclasda 34 OECD-də üzvə dövlətin və 4 müşahidəçi ölkənin (Azərbaycan, Braziliya, Çin, Latviya) mümayəndələri iştirak etmişlər. OECD-nin katibliyi tərəfindən təşkilat çərçivəsində vergi siyasətində baş verən dəyişikliklər barədə təqdimat olunmuş, tədbirin gedişində ƏDV və aksiz vergisi üzrə müasir beynəlxalq tendensiyalar təhlil edilmiş, vergi statistikası nəzərdən keçirilmişdir.

İclasda Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi Telman Hüseynli iştirak etmişdir.

## IOTA forumunda «İri vergi ödəyiciləri» mövzusu müzakirə edilmişdir

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən Buxarestdə keçirilən forum zamanı Avropa Birliyinə üzv ölkələrdə və digər ölkələrdə iri vergi ödəyiciləri üzrə müəyyənedici kriteriyalar və bu məqsədlə onların mərkəzləşmiş qaydada qeydiyyatı, iri vergi ödəyiciləri üzrə risklərin təhlili, büdcə gəlirlərində xüsusi çəkisi və bu sahədə baş verən ən son dəyişikliklər, həmçinin yeni idarəetmə alətləri barədə iştirakçı ölkələrin təcrübəsi müzakirə edilmişdir.

Tədbirin əsas istiqaməti elektron vergi auditinin tətbiqi, vergi orqanları ilə vergi ödəyiciləri arasında əməkdaşlıq imkanları, bu sahədəki boşluqlar, vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin çoxsaylı tranzaksiyalara uyğun olaraq minimallaşdırılması kimi müxtəlif praktiki məsələlərin həllinə yönəlmişdir. Forumda son 12 ayda iri vergi ödəyicilərinin fəaliyyətinə nəzarət və digər adminstrativ məsələlərdə müşahidə olunan yeniliklər, horizontal monitorinq, elektron auditin tətbiqi istiqamətləri barədə iştirakçı ölkələrin təqdimatları dinlənilmişdir.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin İri vergi ödəyiciləri üzrə bəyannamələr şöbəsinin əməkdaşı Ülvi Tağıyev təmsil etmişdir.

# «Vergi Partnyorluğu Sazişi»: qarşılıqlı inam və etimad körpüsü

*Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi Partnyorluğu Sazişi»: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 64 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata, 10 yazı isə həvəsləndirici yerə layiq görülmüşdür.*

*Müsabiqədə yüksək yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.*

«...Vergiləri həmişə vaxtında ödəməyə çalışmışam, vergi bəyannamələrini müəyyən olunmuş müddətədək təqdim etmişəm. Bəyannamələrin və köçürmələrin elektron qaydada verilməsinin mümkünlüyü işimizi xeyli asanlaşdırır. Ancaq «Vergi Partnyorluğu Sazişi»nin meydana çıxması işimizi daha rahat hala gətirib. Ən əvvəl ona görə ki, bu sazişlə səyyar vergi yoxlamaları ilə üzləşmirəm. Vergi orqanları ilə münasibətlərimiz qarşılıqlı etimad və inam müstəvisində qurulub». Bu sözləri deyən qənnadı məhsulları istehsalı ilə məşğul olan sahibkar Tariyel Cabbarlı 2013-cü ilin oktyabr ayında vergi orqanı ilə «Vergi Partnyorluğu Sazişi»ni imzalayıb və bundan çox məmnundur. Dediyinə görə, bu sazişdən sonra vergi öhdəliklərinə daha ciddi əməl edir və vergi orqanı tərəfindən yoxlamaya məruz qalmayıb. Əksinə, hər hansı problem meydana çıxdıqda vergi xidməti əməkdaşları ona məsləhətlər verir, yol verdiyi yanlışlıqları aradan qaldırmağa kömək edirlər.

### Qarşılıqlı etimad möhkəmlənir

Fəaliyyətini daim modern və innovativ yanaşmalar əsasında qurmağa çalışan vergi orqanları ilə sahibkarlar arasında çevik münasibətlərin qurulmasına imkan verən «Vergi Partnyorluğu Sazişi»ndən məlumatlı olan iş adamları bu yeniliyi böyük məmnuniyyətlə qarşılayıralr. Vergilər Nazirliyi özü də vergilərin məcburi yığılmasından daha çox partnyorluq əsasında könüllü ödəniş sisteminin inkişaf etdirilməsinə maraq göstərir. Bu məqsədlə vergi mədəniyyətinin yüksəldilməsindən tutmuş, vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin sivil və şəffaf əsasda qurulmasına, qarşılıqlı etimad mühitinin formalaşdırılmasına qədər genişmiqyaslı islahatlar həyata keçirilir.

Azərbaycanda «Vergi Partnyorluğu Sazişi» ötən ildən tətbiq olunur. Bu məsələ 2013-cü il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərdə öz əksini tapıb. Sənəddə qeyd edilir ki, «Vergi Partnyorluğu Sazişi» vergi orqanı ilə vergi ödəyicisi arasında vergi risklərinin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Saziş biznes mühitinin daha da liberallaşdırılmasına, sahibkarlığın inkişafının sürətləndirilməsinə xidmət edir.

Vergilər nazirinin müşaviri Akif Musayev bildirir ki, partnyorluq sazişi həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının maraqlarına cavab verir: «Sazişi imzalamış vergi ödəyicisi vergi öhdəliklərinə vaxtlı-vaxtında, qanunvericiliyə uyğun şəkildə əməl etməyə çalışır. Nəticədə vergi orqanı inzibatçılıq xərclərindən, vaxt itkisindən azad olur. Ən vacibi də budur ki, saziş vergi ödəyicilərinin fəaliyyətinə müdaxilələrin azalmasına gətirib çıxarır. Onu imzalayan vergi ödəyiciləri vergi orqanlarından zəruri informasiyaları almaq imkanlarını daha da genişləndirir, biznesin inkişafı ilə bağlı gələcəkdə yarana biləcək vergi öhdəlikləri barədə əvvəlcədən məlumatlı olurlar. Lakin belə bir sazişin imzalanması vergi ödəyicisini vergiləri ödəməkdən azad etmir və ona hər hansı güzəştlər də vəd etmir. Üstünlüklərdən biri odur ki, vergi orqanı zərurət yarandıqda sazişi imzalamış vergi ödəyicilərinin qanunvericiliyə düzgün riayət etmələri üçün onlara tövsiyə və məsləhətlər verir».

### Partnyorluq münasibətləri inkişaf edir

Araşdırmalar göstərir ki, «Vergi Partnyorluğu Sazişi» vergi inzibatçılığı prosesini təkmilləşdirməklə vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin tamamilə yeni əsasda qurulmasına şərait yaradır. Qarşılıqlı etimada və məsuliyyətə əsaslanan vergi partnyorluğu sazişlərinin daha bir üstün cəhəti onların könüllülük əsasında bağlanılmasıdır. Bu, vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranan mübahisələrin minimuma endirilməsi və onların həllinə çəkilən inzibatçılıq xərclərinin aşağı salınması və ya tam aradan qalxmasında müstəsna rol oynayır. Eyni zamanda, belə sazişi imzalayan sahibkar fəaliyyətində daha məsuliyyətli olur.

Adını çəkdiyimiz sahibkar Tariyel Cabbarlı bu sazişi «centlmen razılaşması» adlandırır: «Haqq-hesab dəftərim, vergi ödənişlərim və fəaliyyətim nə qədər düz olacaqsa, vergi orqanlarının müəssisəmə baş çəkməsi bir o qədər az olacaq. Bunu 6 aylıq bir təcrübədən çıxış edərək deyirəm. Belə vəziyyət mənim üçün qənaətbəxşdir və sazişin şərtlərini sonadək yerinə yetirməkdə iddialıyam. Vergi orqanları da sazişin şərtlərinə tam riayət edir. Hər halda digər sahibkarlara, iş adamlarına da bu sazişi imzalamağı tövsiyə edərdim».

### «Horizontal monitorinq»: idarəçilikdə səmərəlilik artır

Cəmiyyət həyatının bütün sahələrinə nüfuz etməyə başlayan, onun ayrılmaz tərkib hissəsinə çevrilən informasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dönəmdə iqtisadiyyatda, o cümlədən vergi idarəçilyində qeyri-ənənəvi metodlardan istifadə zərurətə çevrilir. Bu kontekstdə həm də vergi inzibatçılığının səmərəliliyi və büdcə mənafeyinin qorunması baxımından vergi orqanları ilə vergi ödəyiciləri arasında yeni metodologiyaya söykənən münasibətlərin qurulması zamanın tələbinə çevrilir. Bu, mübahisəli məsələləri minimuma endirməklə bərabər, meydana çıxan mübahisələrin partnyorluq münasibətləri əsasında çözümünə gətirib çıxarır. Bu xüsusda Niderland Krallığı və Avstraliyanın təcrübəsi daha çox diqqət cəlb edir. Həmin dövlətlərdə vergi nəzarəti sistemində modern yanaşmalar mənfi təsirləri hələ də aradan qalxmayan son qlobal maliyyə böhranı fonunda özünü uğurla doğruldub. Qeyd edilən yanaşma vergi orqanı ilə ödəyicilər arasında partnyorluq münasibətlərinin qurulmasına əsaslanır. Vergi ödəyicilərinin fəaliyyətinə intellektual nəzarət texnologiyaların bu prosesin daha rəvan getməsi ilə müşayiət olunur. Niderland Krallığında «Qanunlara əsaslanan cəmiyyətin gələcəyi» konsepsiyasına müvafiq olaraq, burada hələ 2005-ci ildən Vergi və Gömrük Administrasiyası «horizontal monitorinq»in icrasına start verib. «Horizontal monitorinq» sistemi ənənəvi auditdən imtina edilməsini, vergi ödəyicisinin apardığı əməliyyatlar barədə vergi orqanının davamlı olaraq məlumatlandırılmasını, izahatların verilməsini və bununla, vergi nəzarətinin əməkdaşlıq müstəvisinə keçirilməsini təmin edir.

İki il ərzində təcrübədə özünü uğurla doğruldan «horizontal monitorinq»in nəticələri həm vergi orqanı, həm də vergi ödəyiciləri tərəfindən yüksək qiymətləndirilir. Avstraliya, İsveç, İngiltərə, İrlandiya, ABŞ, Koreya və digər ölkələr partnyorluq üzərində köklənən bu təcrübəyə geniş istinad edirlər. Artıq həmin dövlətlərin sırasında Azərbaycan da var.

### Uçot sistemi elektronlaşdırılmış vergi ödəyicilərinə üstünlük verilir

Xatırlatmaq yerinə düşər ki, Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli qərarı ilə təsdiq edilmiş «Vergi Partnyorluğu Sazişinin forması»nın və «Vergi partnyorluğu Sazişinin bağlanması Qaydaları», habelə vergilər nazirinin 2013-cü il 2 iyul tarixli əmri ilə təsdiq edilmiş «Vergi Partnyorluru Sazişinin bağlanması üçün Ərizə» forması ilə partnyorluq sazişlərinin bağlanması üçün zəruri hüquqi baza formalaşdırılıb.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsində «Vergi Partnyorluğu Sazişinin forması», «Vergi Partnyorluğu Sazişinin bağlanması qaydaları» və «Vergi Partnyorluğu Sazişinin bağlanması üçün Ərizə» forması yerləşdirilib. Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi üçün görülən tədbirlər prosesin daha da sürətlənməsi ilə müşayiət olunur. Bütün bunlar həm də onun göstəricisdir ki, artıq ölkəmizdə partnyorluq sazişlərinin bağlanması üçün zəruri olan hüquqi və inzibati tədbirlər müvəffəqiyyətlə həyata keçirilir.

Sazişin bağlanması üçün vergi ödəyicisinin təsdiq edilmiş ərizə forması ilə könüllülük prinsipi əsasında vergi orqanına müraciət etməsi kifayətdir. Bu zaman daxil olmuş müraciətə 15 gün müddətində baxılır və sazişin bağlanması barədə qərar qəbul edilərək vergi ödəyicisinə yazılı məlumat verilir. Müəyən edilmiş qaydalara əsasən, vergi ödəyicisinin dövlət büdcəsi qarşısında vergi öhdəlikləri olduqda, vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsi, yaxud azaldılması müəyyən edildikdə vergi orqanı tərəfindən sazişin bağlanılmasından yazılı məlumat verməklə imtina olunur.

Sazişin imzalanması zamanı, ilk növbədə, uçot sistemi elektronlaşdırılmış vergi ödəyicilərinə üstünlük verilir. Yəni İKT-nin ən son imkanlarından yararlanan vergi ödəyiciləri həm vergi qanunvericiliyinə tam əməl etmək imkanı qazanır, həm də maliyyə-uçot sistemini şəffaf şəkildə qururlar. Eyni zamanda, sazişin imzalanması zamanı vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edən, ƏDV ödəyicisi olan, alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə üstünlük verilir.

### «Vergi Partnyorluğu Sazişi» «ASAN xidmət»də ...

Sazişin bağlanmasının daha asanlığı və rahatlığı üçün Vergilər Nazirliyi tərəfindən bu günlərdə növbəti addım atılıb: «Vergi Partnyorluğu Sazişi»nin bağlanması üçün ərizələrin qəbulu üzrə elektron xidmətlərin göstərilməsinə başlanılması ilə əlaqədar müvafiq inzibati reqlamentlərin layihələri hazırlanaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi («ASAN xidmət») ilə razılaşdırılıb. Layhənin qəbulundan sonra vergi ödəyiciləri «ASAN xidmət» məntəqələrində də sazişi imzalaya biləcəklər.

**Rasim BAYRAMOV,**
***«Mövqe» qəzeti***



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi ödəyicisinin hüquqi statusu

Vergi ödəyicisi anlayışı vergi qanunvericiliyinin xüsusi terminidir - ondan yalnız vergitutma məqsədləri üçün istifadə olunur. Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisi dedikdə bu Məcəlləyə və ona uyğun olaraq müəyyən olunmuş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxs nəzərdə tutulur. Vergi ödəmək vəzifəsinin yaranmasının mümkünlüyü fiziki və ya hüquqi şəxsin vergi münasibətlərinin iştirakçısına aid edilməsinin əsas kriteriyalarından biri hesab edilir.

Hüquqi və ya fiziki şəxslərin vergi hüququ statusu almaları qanunvericiliklə müəyyən olunmuş vergilərin ödənilməsi ilə əlaqədar onların dövlət və ya bələdiyyələrlə vergi münasibətlərinə girmələri səbəbindən irəli gəlir. Vergilərin müəyyən olunması, tutulması, vergi nəzarətinin həyata keçirilməsi zamanı və məsuliyyətə cəlb olunma halları baş verərkən vergi ödəyicilərinin vergi münasibətlərinin iştirakçısı olmaları onların vergi hüququnun subyektləri kimi tanınmasını xarakterizə edir.

*Vergi ödəyicisi statusu xüsusi hüquq statusu olmaqla şəxsin üzərinə vergi ödəmək öhdəliyinin düşdüyünü göstərir*

Vergi ödəyiciləri vergi hüququnun subyekti kimi iki qrupa bölünürlər: təşkilatlar və fiziki şəxslər. Vergitutma məqsədilə təşkilat anlayışı mülki qanunvericilikdə hüquqi şəxs anlayışına bərabər tutulur və iki növə ayrılır: Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs statusunda yaradılmış təşkilatlar; xarici ölkələrin qanunvericiliyinə əsasən yaradılan xarici hüquqi şəxslər, şirkətlər, korporativ qurumlar, beynəlxalq təşkilatlar və onların Azərbaycan Respublikası ərazisində yaradılmış filialları və nümayəndəlikləri. Xarici təşkilatların filialları və xüsusi bölmələri vergi ödəyicisi olan təşkilatlara bu şərtlə aid edilir ki, onların müəyyən vergiləri ödəmək öhdəlikləri olsun və vergi ödəyicisi kimi qeydiyyata alınsınlar.

Vergi ödəyicisi olan fiziki şəxslər dedikdə, Vergi Məcəlləsinə əsasən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbi və vətəndaşlığı olmayan şəxslər nəzərdə tutulur. Ümumiyyətlə, vergitutma məqsədləri üçün vergi ödəyicisi olan fiziki şəxslər fərdi sahibkarlardan və sahibkarlıq fəaliyyəti göstərməyən fiziki şəxslərdən ibarətdir. Fərdi sahibkarlara qanunvericiliklə müəyyən edilmiş qaydada vergi orqanlarında qeydiyyatdan keçmiş və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər aid olunur. Fərdi sahibkarlar vergi ödəyici kimi vergi hüququnun statusunu onun mülki-hüquqi statusundan asılı olmayaraq əldə edir. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən və fərdi sahibkar kimi qeydiyyatdan keçməyən fiziki şəxslər vergi öhdəliklərini yerinə yetirərkən qanunvericiliyin tələblərini pozduqları halda, bunu vergi orqanında fərdi sahibkar kimi qeydiyyatdan keçməmələri ilə əsaslandıra bilməzlər.

Vergi ödəyicisi statusu xüsusi hüquq statusu olmaqla şəxsin üzərinə vergi ödəmək öhdəliyinin düşdüyünü göstərir. Qeyd etmək lazımdır ki, vergi ödəyicilərinin hüquqi statusunu xarakterizə edən əsas elementlər həm fiziki şəxslər, həm də təşkilatlar üçün eynidir. Bunlara vergi ödəyicilərinin qanunvericilik ilə müəyyən edilmiş hüquq və vəzifələrini, həmçinin qanunvericiliyin pozulmasına görə məsuliyyətlərini aid etmək olar.

Vergi ödəyicilərinin hüquq və vəzifələri Vergi Məcəlləsi ilə müəyyən olunmuşdur və ödəyicilərin dövlətə münasibətdə tutduqları mövqeni müəyyən edir. Vergi ödəyicisi hüquqi statusunun olması fiziki şəxsin və ya təşkilatın vergi-hüquq münasibətlərində iştirakçılıq zamanı özünü göstərir. Vergi ödəyicilərinin əsas hüquqlarından biri onların qanunvericiliyin tətbiqi məsələləri barədə vergi orqanlarından yazılı məlumat və izahlar almaq hüququdur. Vergi ödəyicilərinin qeydiyyatda olduqları yer üzrə vergi orqanlarından vergi ödəyicilərinin, vergi orqanlarının və onların vəzifəli şəxslərinin hüquq və vəzifələri barədə, eləcə də qüvvədə olan vergilər barədə məlumatları ödənişsiz əldə etmək hüququ var.

Vergi orqanları tərəfindən kameral və səyyar yoxlamalar keçirilərkən vergi ödəyicilərinə öz qanuni maraqlarını qoruya bilmələri üçün geniş səlahiyyətlər verilmişdir. Bunlara vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergilərin hesablanması və vergi yoxlamasının nəticələri üzrə izahların verilməsini, vergi yoxlamalarının keçirilməsində iştirak etmələrini, vergi yoxlaması aktının surətini və vergi orqanlarının qərarlarının əldə olunmasını və s. aid etmək olar.

Demokratik dövlət quruculuğu şəraitində vergi orqanlarının və onların vəzifəli şəxslərinin qanunvericiliyə zidd hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulan zərəri tam məbləğdə tələb etmək hüququnun olması mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, qanunvericiliklə müəyyən edilmiş hallarda vergi ödəyicilərinin vergi güzəştlərindən istifadə etmək hüququ da vardır. Bunlarla yanaşı, vergi ödəyicilərinin hüquqları Vergi Məcəlləsi ilə və vergi qanunvericiliyinə aid edilən digər qanunvericilik aktları ilə məhdudlaşdırılmır.

Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyi ilə verilmiş vergi hüquqları subyektiv hüquq olaraq vergi hüququ subyektlərinin davranış imkanlarının həddini müəyyən edir. Həmişə subyektiv hüquqa qarşı subyektiv vəzifələr də müəyyən olunur. Həmin vəzifələr isə vergi hüququ subyektinin məcburi davranış normalarını müəyyən edir ki, onların da yerinə yetirilməməsi qanunvericiliklə müəyyən edilmiş məsuliyyətin yaranması ilə nəticələnir.

# Dövlət qurumlarının fəaliyyətində insan amili

***İyunun 19-da Beynəlxalq Mətbuat Mərkəzində «Vergilər» qəzeti, «Professional mühasib» jurnalı və Demokratik Jurnalistlər Birliyinin təşkilatçılığı ilə18 İyun - İnsan Hüquqları Gününə həsr olunmuş «Dövlət qurumlarının fəaliyyətində insan amili» mövzusunda «dəyirmi masa» keçirilmişdir. Tədbirdə Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva, nazirliyin Aparatının rəhbəri Zeynalabdin Məmmədzadə, İqtisadiyyat və Sənaye Nazirliyinin İnsan resurslarının inkişafı şöbəsinin insan kapitalı sektorunun müdiri Sevda İmamverdiyeva, Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin mütəxəssisi Nizami Əliyev, Ombudsman Aparatının elmi-analitik sektorunun müdiri Mahir Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin sektor müdiri Vasif Quliyev, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının hüquqşünası Sevil Zeynalova, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş məsləhətçisi Məhəmmədəli Əfəndiyev, Sosial Hüquqların Araşdırılması İctimai Birliyinin sədri Mais Əliyev, Korrupsiyaya Qarşı Mübarizə Fondunun rəhbəri Vasif Mövsümov, «Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev, «Professional mühasib» jurnalının baş redaktoru Mehdi Babayev və Demokratik Jurnalistlər Birliyinin sədri Yadigar Məmmədli iştirak etmişlər.***



**Cəmiyyətin maarifləndirilməsində KİV-in üzərinə böyük məsuliyyət düşür**

*«Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev* tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, bütün sahələrdə dinamik inkişaf edən respublikamızda vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsi ölkədə həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindəndir. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ölkə Konstitusiyası insan hüquq və azadlıqlarının etibarlı təminatına fundamental hüquqi əsaslar yaratmışdır: «Konstitusiyanın 158 maddəsindən 48-nin, yəni üçdə birinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması Azərbaycan dövlətinin demokratik dəyərlərə sadiqliyini təsdiqləyir. İlk milli Konstitusiyamızda BMT-nin 1948-ci il 10 dekabr tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq sənədlərdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam və əhatəli şəkildə təsbit olunmuşdur. Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın ilk milli Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etmişdir».

Bildirilmişdir ki, Konstitusiyanın qəbulundan sonra dövlət qurumlarının fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılması, vətəndaşların qanuni mənafelərinin yüksək səviyyədə qorunması məqsədilə bir sıra qanunvericilik aktları qəbul edilmişdir. 1998-ci ilin 22 fevral tarixli «Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» tarixi fərmanla insan hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən islahatların dəqiq konsepsiyası müəyyən edilmişdir: «İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə 18 iyun 1998-ci il tarixdə «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» təsdiq edilmişdir. Ölkəmizdə 18 iyun tarixinin İnsan Hüquqları Günü kimi qeyd olunması da məhz bu əlamətdar tarixlə bağlıdır».

A.Əliyev vurğulamışdır ki, son 10 ildə insan hüquq və azadlıqlarının təminatına xidmət edən xeyli sayda qanun, sərəncam, fərman, dövlət proqramı imzalanaraq qüvvəyə minmişdir. Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində də insan amili ölkədə həyata keçirilən siyasətin əsasında dayanır, dövlət qurumları ilə vətəndaşlar arasında münasibətlərin sivil, şəffaf və qanuna müvafiq qaydada qurulması məqsədilə müasir, çevik və işlək mexanizmlərin tətbiqi xüsusi diqqətdə saxlanılır: «Ölkə başçısının siyasi iradəsi ilə son illər neqativ hallara qarşı mübarizə tədbirləri gücləndirilmiş, elektron xidmətlərin geniş tətbiqi səmərəli nəticələr vermiş, vətəndaşların ərizə və şikayətlərinə, müraciətlərinə baxılmasının daha mütərəqqi üsullarının tətbiqinə başlanılmışdır və Vergilər Nazirliyi bu sahədə öncül dövlət qurumlarından biridir».

Bildirilmişdir ki, bugünkü «dəyirmi masa»nın təşkilində məqsəd Azərbaycanda dövlət qurumlarında insan hüquq və azadlıqlarının qorunması vəziyyətinə, bu sahədə əldə olunmuş uğurlara, çatışmazlıqlara nəzər salmaq, qarşıda duran vəzifələri obyektiv şəkildə müzakirə etməkdir: «Hesab edirik ki, cəmiyyətin hüquqi sahədə maarifləndirilməsi, eyni zamanda dövlət qurumları ilə vətəndaşlar arasında inam və etimadın möhkəmləndirilməsində kütləvi informasiya vasitələrinin üzərinə mühüm vəzifələr düşür».

## İnsan hüquq və azadlıqlarının qorunması Vergilər Nazirliyinin qarşısında duran əsas prioritetlərdəndir



***Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva*** qeyd etmişdir ki, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, normativ-hüquqi bazanın və hüquq-müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə ölkəmizdə 1998-ci ildə «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı», 2006-cı ildə «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı», 2011-ci ildə isə «İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı» qəbul edilmişdir: «Proqramda insan amili bütün dövlət orqanları qarşısında mühüm bir vəzifə kimi qoyulmuşdur. Konstitusiyada birmənalı şəkildə insan faktoru əsas müddəa kimi qeyd olunmuşdur. Bu, dövlət və icra strukturlarında, ictimai, yerli özünüidarəetmə və digər qurumlarda idarəetmənin təşkili zamanı insan amilinə əsas yer verilməsinin vacibliyini mühüm şərt kimi qarşıya qoyur. Yəni insanların hüquqlarının qorunması dövlət orqanlarının fəaliyyətindən kənarda qala bilməz və qarşılıqlı əlaqə sayəsində bunu təmin etmək mümkündür. 2011-ci ildən qüvvəyə minən «İnzibati icraat haqqında» Qanun və İnzibati Prosessual Məcəllənin qüvvəyə minməsi ilə dövlət orqanları ilə vətəndaş münasibətlərinin tənzimlənməsi yeni mərhələyə keçmişdir. Bu sənədlər dövlət orqanlarının vətəndaş qarşısında konkret vəzifələrini müəyyənləşdirir. Həmçinin vətəndaşların dövlətin idarə olunmasında iştiraka cəlb edilməsini, dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsini, dövlət siyasətinin formalaşması, bu siyasətin həyata keçirilməsi zamanı vətəndaşların qanuni maraqlarını, hüquqlarının müdafiəsini təmin edən Azərbaycan Respublikasının «İctimai iştirakçılıq haqqında» Qanunu 2014-cü ildən qüvvəyə minmişdir.

Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması Vergilər Nazirliyinin də qarşısında duran əsas prioritetlərdəndir. Nazirlik «İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nı rəhbər tutaraq Tədbirlər Planı hazırlayıb və bu istiqamətdə bir sıra səmərəli tədbirlər həyata keçirilməkdədir. Bununla yanaşı, şəffaflığın artırılmasını və korrupsiyaya qarşı mübarizəni başlıca vəzifələrindən hesab edən nazirlik tərəfindən «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Tədbirlər Planı» hazırlanaraq həyata keçirilir. Nazirlik vergi orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaş-məmur təmaslarının minimuma endirilməsi, nəzarət mexanizmlərinin gücləndirilməsi və kadrların peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə ən müasir xidmət vasitələrini tətbiq edir. Vergi ödəyicilərinə xidmət strukturları tərəfindən vergi ödəyicilərinin məlumatlandırılması sahəsində fəal iş aparılır. Nazirliyin internet saytı vergi qanunvericiliyi ilə bağlı məlumatların alınması məqsədilə elektron informasiya məkanından geniş istifadə edilməsi, vergilər barədə məlumat bazasının yaradılması, vergi orqanları və vergi ödəyiciləri, həmçinin vətəndaşlar arasında interaktiv əlaqənin genişləndirilməsi baxımından çox faydalıdır. Bundan başqa, internet saytı vasitəsilə vergilər naziri ilə birbaşa əlaqə yaratmaq, vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı, saxtakarlıq və ya korrupsiya hallarının, eləcə də sahibkarlıq fəaliyyətində vergi qanunvericiliyi ilə əlaqədar hüquq pozuntuları barədə məlumat almaq, Vergi Apelyasiya Şurasına müraciət etmək və video-qəbul mümkündür. «Facebook» sosial şəbəkəsində nazirliyin Azərbaycanın vergi sisteminin təbliği ilə bağlı geniş məlumat bazası mövcuddur. Vergi ödəyiciləri onları narahat edən məsələlərlə bağlı «195» Çağrı Mərkəzindən günün 24 saatı ərzində məlumat ala bilirlər. Bu gün vergi orqanları vergi nəzarətinin distant formalarına üstünlük verir, yoxlamalar daha çox kameral üsulla aparılır. Vergi ödəyicilərinin bəyannamələrinin kameral vergi yoxlaması prosesində tətbiq edilmiş yeni proqram təminatları bu sahədə vergi nəzarətinin səmərəliliyinin əsaslı şəkildə artırılmasına imkan vermişdir».

Vergilər Nazirliyində 2006-cı ildən elektron xidmətlərin göstərilməsinə başlanılmış və hal-hazırda nazirlik digər dövlət orqanları ilə müqayisədə ən çox elektron xidmət göstərən orqandır. Nazirlik tərəfindən göstərilən xidmətlərin elektronlaşdırılması vətəndaşlarla məmurların kontaktını istisna edir ki, bu da vətəndaşların hüquqlarının qorunmasının təminatıdır. İnsan resurslarının inkişafından danışan S.Musayeva 2002-ci ildə yaradılmış Tədris Mərkəzinin fəaliyyətinin, testlə işə qəbulun, xüsusilə namizədlərin sənədlərinin elektron formada qəbulunun və müsahibə prosesinin video çəkilişinin aparılmasının mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır: «İnsan resurslarının inkişafı, savadlı və peşəkar kadraların hazırlanması Vergilər Nazirliyinin fəaliyyətinin prioritet sahələrindəndir. Nazirliyin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə hər il regionlarda sahibkarlarla və onların ictimai təşkilatları ilə görüşlər keçirilir, «dəyirmi masa»lar təşkil olunur. İctimai təşkilatların nümayəndələrinin təmsil olunduğu «Vergi klubu» yaradılmışdır. Nazirlik davamlı olaraq vergi ödəyiciləri üçün «Açıq qapı» günü keçirir. Bütün regionlarda «İnsan hüquqları aylığı» çərçivəsində vergi ödəyiciləri üçün silsilə tədbirlər təşkil olunur, vergi ödəyicilərinə onların hüquq və vəzifələri izah edilir, şikayət və müraciətlər araşdırılaraq konkret tədbirlər görülür».

S.Musayeva vergi qanunvericiliyinin təkmilləşdirilməsi barədə də məlumat vermişdir: «Vergi sisteminin Avropa standartlarına uyğunlaşdırılması, texniki potensialının gücləndirilməsi, vergi auditinin inkişaf etdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının davamlı tətbiqi, vergi ödəyicilərinə xidmət sahələrinin, o cümlədən elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi vergi ödəyicilərinin hüquqlarının daha etibarlı şəkildə qorunmasına xidmət edir. Vergilər Nazirliyi sahibkarlıq subyektlərinin daha azad və geniş fəaliyyətinə də mühüm yer ayırır. Son illər Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa, hüquqlarının qorunmasına yönəlmişdir. Bütün bunlar vergi ödəyicilərinin hüquqlarının müdafiəsi və onların mənafelərinin qorunması, vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsinə mühüm töhfəsini verməkdədir. Eyni zamanda, 2014-cü ildən qüvvəyə minən «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə yoxlamalar zamanı sahibkarların hüquq və maraqlarının müdafiəsi ilə bağlı tələbləri müəyyən edir, onların fəaliyyətinə hər hansı müdaxilənin qarşısını alır. Ötən il «Vergi Partnyorluğu Sazişi»nin bağlanması Qaydaları təsdiq edilmişdir. Saziş vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan çevik və şəffaf mexanizmlər əsasında qurulmasına xidmət edir».

## Vətəndaşların qəbulu və müraciətlərinə baxılması yüksək səviyyədə həyata keçirilir



***Vergilər Nazirliyinin Aparatının rəhbəri Zeynalabdin Məmmədzadə*** bildirmişdir ki, vergi orqanlarının fəaliyyətində insan hüquq və azadlıqlarının yüksək səviyyədə təminatı, eləcə də vergi ödəyicilərinin qanuni mənafelərinin qorunması məsələləri mühüm yer tutur. Qeyd olunmuşdur ki, bu istiqamətdə həyata keçirilən mühüm fəaliyyətlərdən biri də vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılması işinin müasir dövrün tələbləri səviyyəsində təşkilidir. Bildirilmişdir ki, nazirlik son illər bu prosesi innovativ yeniliklər, çevik və işlək mexanizmlər əsasında qurmağa, vergi ödəyicilərinin məmnunluğunu təmin etməyə nail olmuşdur.

Z.Məmmədzadənin məlumatına əsasən, 2014-cü ilin yanvar-may aylarında Vergilər Nazirliyinə 39124 müraciət daxil olmuşdur ki, bunun da 38547-si ərizə, 533-ü şikayət, 44-ü isə təklifdir: «Ümumi müraciətlərin sayında şikayətlərin xüsusi çəkisi cəmi 1,4% təşkil edir. Daxil olmuş bütün müraciətlər vergi orqanları tərəfindən araşdırılaraq qanunamüvafiq qaydada cavablandırılmış, çıxarılmış qərarların 70%-i vergi ödəyicilərinin xeyrinə olmuşdur. 2014-cü ilin ilk beş ayında Vergilər Nazirliyinə daxil olmuş şikayətlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,2% azalmışdır. Ümumiliklə, nazirliyin rəhbərliyinin mövqeyi belədir ki, vətəndaşların ərizə və şikayətlərinin obyektiv araşdırılması büdcə proqnozlarının icrası qədər ümdə məsələdir. Nazirliyin Aparatında bu prosesin qanunvericiliyin tələblərinə tam uyğun şəkildə qurulması təmin edilmişdir».

Bildirilmişdir ki, Vergilər Nazirliyinə daxil olan hər bir müraciət üzrə 3 gün müddətində bildiriş məktubu göndərilir: «Həmin məktubda müraciətin icraata qəbulu, ona hansı idarədə və ya şöbədə, hansı əməkdaş tərəfindən baxıldığı, həmin əməkdaşın əlaqə nömrələri əksini tapır. Beləliklə, vətəndaş öz müraciətinin icra vəziyyətinə məsafədən nəzarət imkanı əldə edir. Bundan əlavə, şikayətlərin araşdırılması zamanı vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin iştirakının təmin olunması da insan hüquqlarının maksimum səviyyədə qorunmasına xidmət edən addımlardandır. Əksər hallarda verilən izahat və aparılan söhbətin nəticəsi olaraq vergi ödəyicisi qanunvericilin tələblərini pozduğunu etiraf edir və vergi orqanı tərəfindən hesablanmış vergiləri dövlət büdcəsinə ödəyir».

Vergilər Nazirliyində 2008-ci ildən Vergi Apelyasiya Şurasının fəaliyyət göstərdiyini diqqətə çatdıran Z.Məmmədzadə qeyd etmişdir ki, bu kollegial qurumun əsas missiyası bir müraciət üzrə araşdırma aparılıb inzibati qərar çıxarıldıqdan sonra, həmin məsələ ilə bağlı təkrar müraciət daxil olduqda, onu qanun çərçivəsində araşdırmaq və qərar qəbul etməkdir».

Bildirilmişdir ki, Vergilər Nazirliyinin vergi ödəyicilərinin qəbulu Vətəndaşların qəbulu şöbəsi tərəfindən tamamilə şəffaf, sivil və qanunamüvafiq qaydada təşkil edilir: «Vətəndaşlar şəffaf şüşələrdən qurulmuş otaqda qəbul edilirlər. Burada vətəndaşlara əvvəlcədən xəbərdarlıq edilməklə videoçəkiliş aparılır. Bəzən vergi ödəyicisi nazirliyə yazılı müraciət etmir və birbaşa qəbula üz tutur. Belə olan halda onlarla söhbət aparılır, qanunvericiliyin tələbləri izah olunur. Bir qayda olaraq, bundan sonra vətəndaşlar vergi orqanından daha yuxarı dövlət orqanına şikayət etmirlər».

Qeyd edilmişdir ki, ölkə başçısının tapşırığına uyğun olaraq, vergilər naziri cənab Fazil Məmmədov 2013-cü ilin aprel ayından vətəndaşları yerlərdə qəbul edir. İndiyədək 13 şəhər və rayonda vergilər naziri tərəfindən 660 vətəndaş qəbul edilmiş, onların müraciətlərinin 70%-i müsbət həllini tapmışdır.

**Davamı 5-ci səhifədə**

# Dövlət qurumlarının fəaliyyətində insan amili

Əvvəli 4-cü səhifədə

## Əlilliyi olan şəxslərin işlə təminatına diqqət artırılmalıdır



***Sosial Hüquqların Araşdırılması İctimai Birliyinin sədri, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin professoru Mais Əliyev*** bildirmişdir ki, insan hüquqlarının yüksək səviyyədə təmin olunması, insanların arzu və istəklərini gerçəkləşdirməyə qadir olan sivil cəmiyyətin formalaşdırılması ən qədim dövrlərdən indiyədək bəşər cəmiyyətini düşündürən əsas məsələlərdəndir. Müasir dövrdə istənilən dövlətin sürətli tərəqqisini şərtləndirən mühüm amillərdən biri ədalətli sosial quruluşun və vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsindən keçir.

Qeyd olunmuşdur ki, bu gün ölkə vətəndaşlarının sosial sahədə hüquqlarının lazımi səviyyədə qorunması, cəmiyyətdə sosial müdafiəyə daha çox ehtiyac duyan insanların maarifləndirilməsi baxımından, kütləvi informasiya vasitələri ilə yanaşı, qeyri-hökumət təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Bəzi hallarda malik olduqları hüquqlardan, ölkə qanunvericiliyindən xəbərsiz olan vətəndaşlar dövlət orqanlarında qanuni maraq və mənafelərini təmin edə bilmir, biganə münasibətlə üzləşirlər: «Etiraf etməliyik ki, bu qəbildən olan vətəndaşlar hansısa dövlət məmurunun öz işinə səhlənkar yanaşması səbəbindən dövlətin müəyyən etdiyi sosial hüquq və imtiyazlardan bəhrələnə bilmirlər. Qeyri-hökumət təşkilatlarının daha çox müşahidə etdiyi nöqsanlardan biri də sosial hüquqlarını reallaşdırmaq istəyi ilə müraciət etmiş vətəndaşların ərizələrinin rəsmi şəkildə qeydiyyata alınmamasıdır. Məsələn, hansısa müavinətin, yaxud əlillik dərəcəsinin təyini ilə bağlı dövlət qurumuna müraciət edən vətəndaşın ərizəsi bir çox hallarda qeydə alınmır və ona şifahi şəkildə rədd cavabı verilir. Bunun əsas səbəblərindən biri də vətəndaşların öz hüquqlarını bilməmələri, cəmiyyətdə hüquq mədəniyyətinin qənaətbəxş səviyyədə olmamasıdır. Məhz bu baxımdan, vətəndaşların sosial hüquqları ilə bağlı maarifləndirmə və təbliğat işləri gücləndirilməlidir. Sosial Hüquqların Araşdırılması İctimai Birliyinin nəzdində fəaliyyət göstərən «Hüquq klinikası» vətəndaşların bu sahədə maarifləndirilməsinə, onlara zəruri hüquqi yardımın göstərilməsinə çalışır».

M.Əliyev vurğulamışdır ki, son vaxtlar işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin rəsmiləşdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli tədbirlər diqqətəlayiq olsa da, cəmiyyətdə Əmək Məcəlləsinə son dəyişikliklərlə bağlı yetərincə məlumat yoxdur: «Əmək Məcəlləsinin 49-cu maddəsinə edilmiş dəyişikliyə əsasən, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Bu dəyişikliklərdən sonra təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər. Lakin etiraf etməliyik ki, lazımi səviyyədə təbliğat və maarifləndirmə işi aparılmadığından, işəgötürənlərin böyük əksəriyyəti bu yeniliklərdən xəbərsizdir».

Əlilliyi olan şəxslərin işlə təmin olunması və əmək hüquqlarının qorunması ilə bağlı müəyyən nöqsanların mövcudluğunu deyən natiq bu məsələlərin hüquqi müstəvidə tənzimlənməsi üçün qanunvericilikdə müəyyən dəyişikliklərin edilməsinin vacibliyini bildirmişdir: «Əlilliyi olan şəxsləri işə götürməməyə görə İnzibati Xətalar Məcəlləsində 50 manatdan 90 manatadək cərimə nəzərdə tutulur. İşəgötürən üçün bu çox kiçik rəqəm olduğundan onun məsuliyyətindən danışmaq da çətindir. Yəni tətbiq edilən cəzanın səmərəliliyi olmalıdır. Halbuki əlil şəxslərin cəmiyyətə inteqrasiyası, ələbaxımlıqdan uzaq olmaları üçün onlar işlə təmin edilməlidirlər».

## Təbliğat müasir medianın tələblərinə uyğun qurulmalıdır



***Demokratik Jurnalistlər Birliyinin sədri Yadigar Məmmədli*** bildirmişdir ki, müasir dövrdə insan hüquq və azadlıqlarının təmin olunmasında, dövlət orqanlarının fəaliyyəti barədə cəmiyyətə obyektiv və dolğun informasiyaların çatdırılmasında kütləvi informasiya vasitələrinin də üzərinə mühüm vəzifələr düşür. Qeyd olunmuşdur ki, dövlət qurumlarının fəaliyyətində müşahidə olunan əsas çatışmazlıqlardan biri yeniliklər barədə məlumatların cəmiyyətə müasir medianın tələblərinə uyğun şəkildə çatdırılmamasıdır: «Dövlət qurumlarının fəaliyyətində uğurlar və yeniliklər kifayət qədər olsa da, bəzən peşəkar yanaşmanın olmaması, piar işinin düzgün qurulmaması səbəbindən bunlar cəmiyyətin diqqətindən kənarda qalır. Bu gün ənənəvi təbliğat vasitələri - televiziya, radio və yazılı mətbuatla yanaşı, qloballaşan dünyanın ictimai həyata gətirdiyi innovasiyalar, o cümlədən sosial şəbəkələşmə meyilləri nəzərə alınmalıdır. Bu baxımdan, dövlət qurumlarının «Facebook», «Twitter» və digər sosial şəbəkələrdə səhifələri, habelə təbliğat prosesində iştirak edən açıq qrupları olmalıdır. Bu, hər hansı dövlət qurumundan, eləcə də özəl şirkətlən xüsusi xərc tələb etmir. Nəzərə almaq lazımdır ki, indi hər hansı xəbər və məlumat ənənəvi kütləvi informasiya vasitələri ilə müqayisədə sosial şəbəkələrdə ildırım sürəti ilə, həm də daha böyük auditoriyaya yayılır».

Y.Məmmədli qeyd etmişdir ki, vacib məsələlərdən biri də vətəndaşların maarifləndirilməsi və məlumatlandırılması baxımından sosial videoçarxların hazırlanaraq kütləvi informasiya vasitələrində yerləşdirilməsidir. Qeyd edilmişdir ki, bu cür videoçarxların televiziya və radiolarda ödənişsiz əsaslarla yayılması həm də qanunvericiliyin tələbidir: «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında qeyd olunduğu kimi, respublikamız bu onilliyin sonunadək yüksək inkişaf etmiş ölkələr sırasına daxil olmağa iddialıdır. Belə olan halda, ölkədə insan hüquq və azadlıqlarının qorunması mexanizmləri də tamamilə Qərb standartlarına uyğunlaşdırılmalıdır. Dövlət qurumları bu reallığı nəzərə alaraq, piar işini müasir tələblər səviyyəsində qurmalıdırlar».

## Ədliyyə sistemində islahatlar insan hüquqlarının etibarlı təminatına imkan yaradır



***Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin mütəxəssisi Nizami Əliyev*** bildirmişdir ki, hər bir ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi mexanizminin səmərəliliyi, ilk növbədə, ədliyyə və məhkəmə orqanlarında həyata keçirilən islahatlarla sıx bağlıdır: «Ulu öndər Heydər Əliyevin hüquq siyasətini uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycan ədliyyəsinin davamlı inkişafına xidmət edən genişmiqyaslı islahatlar aparılmış, ədliyyə orqanlarının fəaliyyəti genişləndirilmiş, bu sahədə yeni iş metodlarının, qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının və elektron xidmətlərin geniş tətbiqi təmin edilmiş, müasir infrastrukturun yaradılması üzrə tədbirlər görülmüşdür».

Bildirilmişdir ki, əhalinin daim yeniləşən qanunvericilik aktlarının mətni ilə birbaşa, sərbəst və təmənnasız tanış olması, hüquqi biliklərinin artırılması məqsədilə 2006-cı ildən milli qanunvericiliyin elektron məlumat bazası (www.e-qanun.az) yaradılmışdır: «2011-ci ilin iyulundan «Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununa əsasən, nazirlik tərəfindən yaradılmış Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantı (www.huquqi-aktlar.gov.az) interaktiv rejimdə fəaliyyət göstərir və daim yeniləşdirilir».

Ədliyyə orqanlarının inkişafına dair dövlət proqramı çərçivəsində qeyri-kommersiya hüquqi şəxslərin avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminin yaradılması, vətəndaşlıq vəziyyəti aktları, elektron notariat üzrə avtomatlaşdırılmış qeydiyyat informasiya sistemlərinin qurulması vətəndaşların qanuni mənafelərinin qorunması baxımından mühüm əhəmiyyətə malikdir. Son illərdə nazirliyə həvalə olunmuş mühüm səlahiyyətlərdən biri də sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin aparılmasıdır: «Bu sahədə yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 13 aprel 2010-cu il və 15 fevral 2011-ci il tarixli fərmanlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən müvafiq reyestr formalaşdırılmışdır (www.yoxlama.gov.az) və o, 2011-ci ilin mayından fəaliyyət göstərir. Artıq iş adamları üçün əməli əhəmiyyət daşıyan reyestrin fəaliyyəti təkmilləşdirilərək nazirliyin internet səhifəsində elektron xidmətlər bölməsinə və «1650» avtomatlaşdırılmış telefon xidmətinə sahibkarlara məlumat almaq və müraciət etmək imkanı yaradan funksiyalar əlavə olunmuşdur».

Qeyd edilmişdir ki, nazirliyin internet saytında elektron xidmət bölməsi yaradılmış, elektron sənəd dövriyyəsinin tətbiqinə başlanmışdır. Əhaliyə göstərilən hüquqi xidmətlərin səmərəliliyinin artırılması məqsədilə universal elektron xidmət köşkləri işlənilmiş, xüsusi proqram təminatı hazırlanaraq notariat orqanlarında istifadəyə verilmişdir: «Artıq həmin köşklərdə ödənişlərin nağd və plastik bank kartları vasitəsi ilə aparılması təşkil edilmiş, bu müsbət təcrübənin qeydiyyat orqanlarında da tətbiqinə başlanılmışdır».

## Ünvanlı sosial yardım avtomatlaşdırılmış qaydada təyin ediləcək



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin sektor müdiri Vasif Quliyev*** demişdir ki, Azərbaycanda insan amilinin bütün sahələrdə önə çəkilməsi ölkədə həyata keçirilən sosialyönümlü siyasətin mahiyyətindən irəli gəlir. Ölkənin iqtisadi inkişafından, neft strategiyasının və sahibkarlığın inkişafının uğurlu nəticələrindən əldə edilən dividendlər bilavasitə insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilir. Minimum əməkhaqlarının, büdcə təşkilatlarında çalışanların məvaciblərinin, pensiya və müavinətlərin artırılması, sosial müdafiə sisteminin getdikcə təkmilləşdirilməsi dövlətin vətəndaşlarına olan diqqət və qayğısının bariz təcəssümüdür.

Azərbaycanda vətəndaşların sosial hüquqlarının reallaşdırılması məqsədilə həyata keçirilən mühüm layihələrdən biri də aztəminatlı vətəndaşlara ünvanlı sosial yardımları nəzərdə tutan xüsusi dövlət proqramının həyata keçirilməsidir. «Ünvanlı sosial yardım haqqında» Qanuna uyğun şəkildə həyata keçirilən layihədən hazırda 100 mindən çox ailə bəhrənir. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədi ilə ehtiyac meyarı mərhələlərlə ölkə üzrə yaşayış minimumuna çatdırılır: «Yaxın perspektivdə ünvanlı sosial yardımların avtomatlaşdırılmış qaydada təyinatı həyata keçiriləcək ki, bu da vətəndaşların sosial hüquqlarının etibarlı təminatına xidmət edir. Bu prosesin əvvəldən sonadək elektron formada həyata keçirilməsi bütün mümkün neqativ halların qarşısını alacaq».

Bildirilmişdir ki, son 10 ildə əhalinin etibarlı sosial müdafiəsinə xidmət edən çoxsaylı fərman və sərəncamlar, dövlət proqramları qəbul edilmiş, səmərəli sosial müdafiə mexanizmi formalaşdırılmışdır: «2008-ci il sentyabrın 15-də təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olunması, səmərəli sosial müdafiə sisteminin inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sosial infrastrukturun inkişaf etdirilməsi və digər strateji məqsədləri ehtiva edir».

Qeyd olunmuşdur ki, Avropa ölkələrində qlobal böhranla bağlı büdcə xərclərinin azaldıldığı və ciddi sosial gərginliyin müşahidə edildiyi halda, son illərdə Azərbaycanda sosialyönümlü layihələrin reallaşdırılmasında hansısa ləngiməyə, yaxud çətinliyə rast gəlinməmişdir. Son aylarda ölkə başçısının tapşırığı əsasında müharibə əlillərinin və veteranların minik avtomobilləri və mənzillərlə təmin edilməsi, onların digər güzəştlərinin reallaşdırılması vətəndaşların sosial hüquqlarına həssas münasibətin ifadəsidir: «Dünya Bankının hesabatına görə, milli gəlirin ədalətli bölgüsünə görə Azərbaycan 110 inkişaf edən ölkəni geridə qoyur. Bankın hesabatına görə, Azərbaycan dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluğa malik 20 ölkədən biridir».

V.Quliyev qeyd etmişdir ki, insana qayğı və hörmət prinsipinə əsaslanan liberal siyasət nəticəsində Azərbaycanda hər bir vətəndaşın əmək hüququ yüksək səviyyədə qorunur. Əmək Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) rəsmi saytında yerləşdirilib.

Qeyd olunmuşdur ki, cəzaçəkmə müəssisələrindən azad olunan şəxslərin sosial reabilitasiyasına, əlillərin məşğulluğunun təmin edilməsinə xidmət edən kompleks tədbirlər də nazirliyin daim diqqət mərkəzindədir.

## Dünyada insan hüquqlarının pozulması hallarının 70%-i korrupsiya ilə bağlıdır



***Korrupsiyaya Qarşı Mübarizə Fondunun rəhbəri Vasif Mövsümov*** insan hüquqlarının qorunmasında dövlət-vətəndaş münasibətləri, şəffaflıq, azad biznes amillərinin mühüm rol oynadığını bildirmişdir: «Beynəlxalq ekspertlərin apardıqları araşdırmalara görə, dünyada insan hüquqlarının pozulması hallarının təxminən 70%-i korrupsiya ilə bağlıdır».

Azərbaycan hökuməti insan hüquq və azadlıqlarının qorunmasını fundamental məsələlərdən hesab edir və insan haqlarının pozulmasına səbəb olacaq hər bir sahə üzrə konkret tədbirlər görür. Korrupsiyaya qarşı mübarizə sahəsində qəbul olunmuş normativ hüquqi aktlar, o cümlədən etik davranış qaydaları insan hüquqlarının qorunması istiqamətində əldə edilmiş nəticələrə öz müsbət təsirini göstərmişdir. Korrupsiyaya qarşı mübarizə ilə bağlı Dövlət Proqramının və Milli Strategiyanın həyata keçirilməsi bu istiqamətdə bir sıra nəticələrin əldə olunmasına imkan yaratmışdır».

Qeyd olunmuşdur ki, vətəndaşlarla dövlət qurumları arasında şəffaf münasibətlərin qurulması insanların dövlət orqanlarına etimadını gücləndirir və nəticədə bu siyasət antikorrupsiya tədbirlərinə mühüm töhfə verir: «Dövlət orqanlarında müasir texnologiyaların tətbiqi, elektron xidmətlərdən geniş istifadə şəffaflığın artırılmasına, vətəndaş-məmur təmaslarının minimuma endirilməsinə səbəb olur. Artıq dövlət qurumlarının əksəriyyətində vətəndaşlara elektron xidmətlərin göstərilməsi, onların müraciət və şikayətlərinin elektron qaydada cavablandırılması insan hüquqlarının qorunmasının mühüm göstəricilərinə çevrilib».

Bildirilmişdir ki, korrupsiya yaradan hallara qarşı mübarizə tədbirlərinin geniş vüsət almasına baxmayaraq, xüsusilə regionlarda insan hüquqlarının pozulması hallarına rast gəlinir: «Bəzi icra strukturları sahibkarların gördüyü işlərə, mal və xidmətlərə görə ödənilməli olan vəsaitləri vermirlər - bu da regionlarda aparılan quruculuq işlərinə kölgə salır, şəffaflığa mənfi təsir göstərir. Regionlarda vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin zəif olması vətəndaşların hüquqlarının pozulmasına səbəb olur. Ona görə də şəffaf idarəetmənin təmin olunmasında regionlarda dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutlarının sıx əməkdaşlığı vacibdir. Bölgələrdə nazirlik və komitələrin müvafiq qurumları ilə əməkdaşlıq edən ictimai şuraların yaradılmasına ehtiyac var. Vətəndaşların fikir və rəylərinin nəzərə alınması, ictimai rəyin öyrənilməsi idarəçilikdə şəffaf münasibətlərə şərait yaradır. Çünki ictimai nəzarət vətəndaşların korrupsiya ilə mübarizə hərəkatında müqavimətinin artmasına və gözlənilən nəticənin əldə olunmasına öz faydasını verir».

V.Mövsümov Vergilər Nazirliyinin davamlı olaraq beynəlxalq təşkilatlarla, vətəndaş cəmiyyəti institutları ilə korrupsiyaya qarşı mübarizə sahəsində sıx əməkdaşlıq etdiyini bildirmiş, antikorrupsiya tədbirlərinin həyata keçirilməsində dövlət orqanları ilə qeyri-hökumət təşkilatlarının birgə əməkdaşlığının mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, Vergilər Nazirliyi insan hüquqlarının qorunmasına, vətəndaşlara sivil münasibətlərin qurulmasına görə öndə gedən dövlət orqanıdır.

Davamı 6-cı səhifədə

# Dövlət qurumlarının fəaliyyətində insan amili

Əvvəli 5-ci səhifədə

## Sahibkarlıq sahəsində yeni qaydalar tətbiq olunur



***İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) sektor müdiri Sevda İmamverdiyeva*** bildirmişdir ki, sahibkarların hüquqlarının qorunması və sahibkarlığın inkişafına dövlət dəstəyi hökumətin həyata keçirdiyi siyasətin başlıca istiqamətlərindəndir: «Son illər sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün bir sıra addımlar atılıb: biznesə başlama prosedurları sadələşdirilib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, sahibkarların maarifləndirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi işləri həyata keçirilib. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı xeyli azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarının qarşısını alan və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib. 2012-ci ildən sahibkarlar üçün verilən lisenziyalar, mənşə və keyfiyyət sertifikatları elektron qaydada həyata keçirilir. Sahibkarlar tələb olunan sənədləri elektron formada təqdim etməklə yanaşı, həmin xidmətlər üçün qanunvericiliklə müəyyən olunmuş bütün dövlət rüsumlarının və xidmət haqlarının ödənişini onlayn rejimdə həyata keçirirlər. Bu məqsədlə İSN-in internet saytında yaradılmış elektron xidmətlər bölməsi vasitəsilə müxtəlif fəaliyyət növlərinə verilən lisenziya və sertifikatlar, xidmətlərin göstərilməsi üçün tələb olunan sənədlərin siyahısı və müraciət edən şəxs tərəfindən doldurulmalı olan ərizə və digər sənədlərin elektron forması yerləşdirilib. Elektron xidmətlər bölməsində 7 istiqamət üzrə interaktiv, 9 istiqamət üzrə isə informativ elektron xidmətlər göstərilir. Nazirliyin daxili informasiya sistemi Mərkəzi Bank tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminə (KÖMİS) inteqrasiya olunub».

Qeyd olunmuşdur ki, sahibkarların maraqlarının müdafiəsini gücləndirmək, sahibkarlıq subyektlərində aparılan dövlət nəzarəti tədbirlərinin keyfiyyətini və səmərəliliyini daha da yüksəltmək məqsədilə ötən ildən yeni qaydalar tətbiq olunmaqdadır: «Yeni qaydaların tətbiqi biznes sektorunda səmərəliliyin yüksəlməsinə, sahibkarlar və icra strukturları arasında əlaqələrin keyfiyyətinin yaxşılaşmasına, operativliyin təmin olunmasına, şəffaflığın daha da artırılmasına müsbət təsir göstərəcək. Bu yeniliklərlə bağlı nazirlik öz internet resurslarından istifadəni genişləndirib. Sahibkarlar onları maraqlandıran suallarla nazirliyin 195-2 Telefon Məlumat Mərkəzinə müraciət edə bilirlər».

S.İmamverdiyeva qeyd etmişdir ki, ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə ölkə başçısı tərəfindən 2014-cü ilin mart ayında imzalanmış «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanun sahibkarların etibarlı müdafiəsinə və daha geniş, azad fəaliyyətinə zəmin yaradır.

Natiq sahibkarların maarifləndirilməsi işinin daha da gücləndirilməsi və iqtisadi sahədə yeniliklərin vətəndaşlara daha açıq və canlı təqdim olunması üçün mediada, xüsusilə televiziyalarda iqtisadi proqramların sayının və keyfiyyətinin artırılmasını təklif etmişdir.

## Sahibkarlara qarşı bürokratik əngəllər əhəmiyyətli dərəcədə azalıb



***Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş məsləhətçisi Məhəmmədəli Əfəndiyev*** sahibkarların hüquqlarının qorunması sahəsində görülən işlərdən bəhs edərək bildirmişdir ki, təşkilat sahibkarlara müxtəlif vasitələrlə dəstək olmağa çalışır: «Konfederasiya hər zaman cəmiyyətin aparıcı təbəqəsi olan sahibkarların ölkə iqtisadiyyatında fəal iştirak etməsi üçün dövlət qurumları ilə sıx ünsiyyət yaratmasına dəstək olur, onların təklif və müraciətləri əsasında biznes mühitinin sağlamlaşdırılmasına töhfəsini verir. Dövlət strukturlarının apardıqları əsassız yoxlamaların, bürokratik əngəllərin qarşısının alınmasında təşkilatın xidmətləri böyükdür. Sahibkarların məhkəmələrdə, mərkəzi və yerli icra hakimiyyəti orqanları qarşısında hüquqlarının qorunması və onlara hüquq-məsləhət xidmətləri göstərən konfederasiya, həmçinin, bələdiyyə qurumları və digər təşkilatlar qarşısında sahibkarlıq subyektlərinin hüquqlarını, əmlak və digər qanuni mənafelərini müdafiə edir». Qeyd olunmuşdur ki, sahibkarlığın inkişafı ilə bağlı sosial-iqtisadi yönümlü müxtəlif sahə, regional və ölkə miqyaslı proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak edən təşkilat sahibkarların maarifləndirilməsi məqsədilə treninq və seminarların təşkilində, sahibkarların Avropa ölkələrində təlimində, xarici ölkələrin biznes mühitinin öyrənilməsində, ölkə daxilində və xaricdə sərgilərin təşkil olunmasında, biznes təkliflərinin hazırlanması və qəbulunda mühüm rol oynamaqdadır.

Bildirilmişdir ki, konfederasiya sahibkarlıq subyektlərinin fəaliyyətini stimullaşdırmaq, özəl istehsal sahələrinin inkişafı üçün münbit şərait yaratmaq, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək məqsədilə təkliflər irəli sürür, maliyyə-bank, sığorta, vergi, gömrük, kredit, audit və digər sahələrdə tərəfdaşları ilə birgə layihələrin təşkilində fəal rol oynayır, bu istiqamətdə iqtisadi qurumlarla, o cümlədən Vergilər Nazirliyi ilə sıx əməkdaşlıq edir: «Ölkədə sahibkarlığın inkişafı və azad rəqabətin gücləndirilməsində, stimullaşdırıcı addımların atılmasında, iqtisadi qanunların, o cümlədən vergi qanunvericiliyinin təkmilləşdirilməsində Vergilər Nazirliyi ilə birgə əməkdaşlıq mühüm nəticələr verir. Həyata keçirilən vergi islahatlarının, vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı tədbirlərdə yaxından iştirak edən konfederasiyanın rəy və təkliflərinin nəzərə alınması səmərəli əməkdaşlıqdan xəbər verir. Təşkilatımız bir neçə ildir ki, Vergilər Nazirliyi ilə vergi partnyorluğu, inzibatçılıq, vergitutma sahəsinə aid aktual mövzular ətrafında müzakirələr aparır, işgüzar təkliflərlə çıxış edir».

## Aparılan islahatlar beynəlxalq hesabatlarda «ən yaxşı təcrübə» kimi dəyərləndirilib



***Ombudsman Aparatının elmi-analitik sektorunun müdiri Mahir Məmmədov*** qeyd etmişdir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra insan hüquqlarının müdafiəsi və təmini sahəsində mühüm islahatlar həyata keçirilməyə başlanmışdır: «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində həyata keçirilən tədbirlərdə dövlət başçısının 1998-ci il 18 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» müstəsna rol oynamışdır. Proqramda nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilmişdir və həmin tarix Azərbaycanda insan hüquqları günü kimi qeyd olunur. Aparılan islahatların məntiqi davamı olaraq ölkə başçısının 28 dekabr 2006-cı il tarixli və 27 dekabr 2011-ci il tarixli sərəncamları ilə Azərbaycanda İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı və insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir. Ötən dövrdə Milli Fəaliyyət Planı üzrə ölkəmizdə aparılan işlər Avropa Şurasının hesabatlarında «ən yaxşı təcrübə» kimi dəyərləndirilmişdir. Beləliklə, 23 illik müstəqillik dövründə insan hüquqları sahəsində strateji əhəmiyyət kəsb edən üç sənədin təsdiq edilməsi ölkədə insan hüquqlarının müdafiəsi baxımından olduqca vacib addım sayılmalıdır».

Bildirilmişdir ki, proqramın həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrupun fəaliyyətinə rəhbərlik Ombudsmana tövsiyə edilmişdir: «Planın icrasına rəhbərlik Ombudsman tərəfindən uğurla yerinə yetirilmiş, dövlət qurumlarının, əhalinin müxtəlif qruplarının, vətəndaş cəmiyyətinin Milli Fəaliyyət Proqramında fəal iştirakını təmin etmək məqsədilə geniş ictimai dinləmələr keçirilmişdir. Proqramın təbliği və təbtiqi vəziyyətinin monitorinqi məqsədilə həyata keçirilmiş ictimai dinləmələr əhalinin hüquqi maarifləndirilməsinə, vətəndaş fəallığının artmasına, hər kəsin iştirak hüququnun təmin edilməsinə, idarəetmənin demokratikləşməsinə və təkmilləşdirilməsinə xidmət edir. Beləliklə, Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə qaldırılmasına, beynəlxalq səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmiş, bununla da davamlı, köklü islahatların ardıcıl, mütəşəkkil proseslərin davamlılığı təmin olunmuşdur. Bu istiqamətdə həyata keçirilən demokratik, hüquqi islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi, yeni icra mexanizmlərinin yaradılması prosesi davam etdirilir».

M.Məmmədov qeyd etmişdir ki, Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının fəaliyyətini məhdudlaşdırmır və əvəz etmir. Onun insan hüquqlarının pozulmasına dair şikayət üzrə qərarları imperativ xarakter daşımır, lakin qanunvericilik Müvəkkilə şikayətlərin araşdırılması, pozulmuş hüquqların bərpa edilməsi sahəsində geniş səlahiyyətlər verir: «Ombudsman təsisatının həyata keçirdiyi fəaliyyətin əsas məqsəd və məramı bütünlüklə insan hüquqlarının həyata keçirilməsinə, pozulmuş insan hüquqlarının bərpasına, vətəndaş cəmiyyətinin, demokratiya meyarlarına cavab verən dövlətin və buna uyğun insan hüquqları sisteminin yaradılmasına yönəldilmişdir. Ombudsman yalnız Azərbaycan vətəndaşlarının deyil, həm də əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, bir sözlə, ölkənin yurisdiksiyası altında olan hər kəsin dövlət və ya yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan hüquqları ilə bağlı müraciətlərə baxır və bununla kifayətlənməyərək, həm də bu hüquqların təmin olunması və pozuntu hallarının qarşısının alınması məqsədilə preventiv fəaliyyətlə də məşğul olur».

M.Məmmədov ali təhsil müəssisələrində ƏDV-nin tətbiqi ilə bağlı məsələlərin aydınlaşdırılmasını təklif edərək bildirmişdir ki, tələbələrdən ƏDV-nin tutulması bir çox qanunvericilik aktlarına uyğun deyil. Müvafiq qanunlara əsasən, tələbələrin ödədiyi təhsil haqlarından ƏDV-nin tutulmasına yenidən baxmağa ehtiyac var. Özəl təhsil müəssisələri bunu özlərinin müstəsna hüquqları kimi əsas gətirərək tələbələri vergiyə cəlb edirlər. Bu kimi hallar vətəndaşların mülkiyyət hüquqlarının pozulması deməkdir və bu sahədə qanun çərçivəsində müvafiq tədbirlərin görülməsi zəruridir.

## İnsan kapitalının inkişafına diqqət artırılmalıdır



***«Professional mühasib» jurnalının baş redaktoru Mehdi Babayev*** vurğulamışdır ki, insan hüquq və azadlıqlarının qorunması, insan amilinin diqqət mərkəzində saxlanılması müasir dövrdə demokratik dəyərlərə sadiqliyini bəyan etmiş hər bir dövlətin üzərinə mühüm vəzifələr qoyur. Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumlar dünya ölkələrinin inkişaf meyarlarını müəyyən edərkən, ilk növbədə, insan inkişafı indeksini əsas götürürlər: «İnsan amili hər bir ölkəni, cəmiyyəti düşündürən mühüm meyardır. İnsan kapitalına diqqətin artırılması, dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən müxtəlif xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması son nəticədə vətəndaşların da dövlət qurumlarına etimadının güclənməsinə, nəhayət, insanların arzu və istəklərinin təmin edilməsinə yaxşı imkanlar açır».

Qeyd olunmuşdur ki, Azərbaycanda ictimai həyatın ən müxtəlif sahələrində aparılan siyasət tam mahiyyəti ilə insan hüquq və azadlıqlarının təmininə, vətəndaşları narahat edən problemlərin aradan qaldırılmasına xidmət edir: «Son 10 il ərzində ölkədə maaş və pensiyaların dəfələrlə artırılması, işsizliyin, yoxsulluğun səviyyəsinin azaldılması, adambaşına düşən ümumi daxili məhsulun dəfələrdə artması insanların həyat keyfiyyətinin yüksəlməsinə şərait yaratmışdır. Lakin insan inkişafı sosial rifah amili ilə yanaşı, əhalinin bilik və mədəni səviyyəsi, sağlamlığı kimi amillərlə də bağlıdır. Cəmiyyətin iqtisadi, siyasi və sosial sabitliyinin kompleks şəkildə təmin edilməsi baxımından dövlətin güclü insan kapitalının formalaşmasına sərmayələr yönəltməsi son dərəcə vacib amildir. Dövlət orqanları tərəfindən göstərilən sosial xidmətlərin keyfiyyəti və intensivliyi məsələlərinə də xüsusi diqqət yetirilməlidir. Son illər insan inkişafında daha çox payı olan təhsil, səhiyyə, idman və digər sahələr üzrə vətəndaşlara göstərilən xidmətlərin intensivliyinin və keyfiyyət göstəricilərinin artımı müşahidə edilir və dövlət orqanlarının bu sahədəki fəaliyyətinin daha da gücləndirilməsi zəruridir. Xüsusən də təhsil xidmətləri daha çox insan kapitalına istiqamətləndiyindən, bu sahədə kadrların yüksək ixtisaslı olmasına və əmək məhsuldarlığı göstəricilərinə diqqət artırılmalıdır».

## İnsan hüquqlarının qorunması üçün bütün qanuni vasitələrdən istifadə olunur



***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının hüquqşünası Sevil Zeynalova*** bildirmişdir ki, yeni ictimai-siyasi və iqtisadi sistemin təşəkkül tapdığı bir dövrdə vətəndaşların sosial və iqtisadi mənafelərinin qorunması yalnız dövlət orqanlarının deyil, həmçinin həmkarlar ittifaqlarının işində mühüm əhəmiyyət kəsb edir: «Həmkarlar ittifaqları öz üzvlərinin və muzdlu işçilərin iqtisadi, sosial, əmək, hüquqi və mənəvi haqlarını, mənafelərini təmsil və müdafiə edir. «Həmkarlar İttifaqı haqqında» Qanuna və Əmək Məcəlləsinin 309-cu maddəsinə əsasən, təşkilatımız işçilərin və işəgötürənlərin əmək, sosial və iqtisadi hüquqlarının və qanuni mənafelərinin təmin olunmasına ictimai nəzarəti həyata keçirir. Konfederasiya cəmiyyətdə əməkdaşlıq ruhunun bərqərar olması, sosial ədalət prinsiplərinə əməl edilməsi, bazar iqtisadiyyatı şəraitində işçilərin əmək hüquqlarının qorunması, işəgötürənlərlə işçilər arasında münasibətlərin tənzimlənməsi istiqamətində mühüm işlər görməkdədir. Təşkilatın fəaliyyətinin əsas strateji məqsədi əhalinin məşğulluğunun səmərəli təşkili, insanın istismarının qarşısının alınması, işləmək istəyənlərə bərabər imkanlar yaradılması və onların maddi rifah halının qənaətedici səviyyəyə çatdırılmasından ibarətdir. Konfederasiya işçilərin mənafelərinin və hüquqlarının pozulması halları ilə bağlı müvafiq icra və məhkəmə orqanlarına müraciət etmiş, minlərlə insanın əmək hüquqlarının bərpa olunmasına, habelə sosial, iqtisadi qanunvericiliyə əməl olunmamasının və digər pozuntuların aradan qaldırılmasına nail olmuşdur».

Qeyd olunmuşdur ki, son dövrlərdə dövlət və ictimai təşkilatlarda həmkarlar ittifaqlarının yaradılmasının coğrafiyasının genişlənməsi vətəndaşların hüquqlarının qorunması sahəsində həyata keçirilən məqsədyönlü siyasətə öz mühüm töhfəsini verir. Araşdırmalar göstərir ki, həmkarlar ittifaqları olan təşkilatlarda insanların hüquqlarının pozulması hallarına az rast gəlinir və ya işçilərə qarşı haqsızlıq baş verdikdə qarşısının alınması mümkün olur.

S.Zeynalova konfederasiyanın həmkarlar ittifaqlarının maarifləndirmə işlərinə də böyük önəm verdiyini diqqətə çatdırmışdır: «Konfederasiya tərəfindən internet və media vasitələrində vətəndaş hüquq və azadlıqlarının qorunması ilə bağlı məlumat xarakterli materiallar yerləşdirilir. «Hüququnu bilin» başlıqlı təbliğat xarakterli yazılarda işçilərə lazımi məlumatlar verilir, onların sualları cavablandırılır».

### Tarixə nəzər salanda...

İlk dəfə olaraq insan hüquqları anlayışına Fransada 1789-cu ildə qəbul edilmiş «İnsan və vətəndaş haqları haqqında deklarasiya»da rast gəlinir. Həmin vaxta qədər isə İngiltərə və ABŞda bu sahədə xartiyalar mövcud idi.

XX əsrdə insan hüquqları sahəsində əsas sənəd 10 dekabr 1948-ci ildə BMT tərəfindən qəbul olunmuş «İnsan hüquqları haqqında ümumi deklarasiya» olmuşdur. 1950-ci ildən başlayaraq 10 dekabr dünyada insan hüquqları günü kimi qeyd edilir.

1966-cı ildə BMT-də «Vətəndaşlıq və siyasi hüquqlar haqqında beynəlxalq pakt» və «İqtisadi, sosial və mədəni hüquqlar haqqında pakt» qəbul edilmişdir.

Avropada insan hüquqlarının və azadlığın qorunması üçün Avropa Konvensiyası mövcuddur. Bu konvensiyanın beynəlxalq müqavilələrdən fərqi Avropada real işləmə mexanizminə malik insan haqlarını qoruyan Avropa Məhkəməsinin fəaliyyət göstərməsidir.

*Hazırladılar:* **Samir MUSTAFAYEV, Elbrus CƏFƏRLİ**

beynəlxalq panoram

# Qazaxıstanda iri investorlar vergilərdən azad olunacaq

Hökumət «Xarici və yerli investisiyaların Qazaxıstan iqtisadiyyatına cəlb olunması üzrə kompleks tədbirlər planı»nı təsdiq etmişdir. Planda investorların vergidən azad olunması nəzərdə tutulur. İqtisadiyyat və büdcə planlaşdırılması nazirinin müavini M. Kusainovun verdiyi məlumata görə, güzəştin əldə olunması üçün investisiyanın məbləği 20 milyon dollardan çox olmalıdır. Onun sözlərinə əsasən, güzəştlər iri investor şirkətlərə «lövbər» layihələrin həyata keçirilməsi üçün veriləcək. Önəmlidir ki, güzəştlər həm xarici, həm də ölkə investorları üçün eyni olacaq. Kompleks planda nəzərdə tutulan tədbirlər artıq bu il, vergi güzəştləri isə 1 yanvar 2015-ci ildən qüvvəyə minəcək.



İnvestisiya mühitinin yaxşılaşdırılması üzrə qanunvericilik investisiya layihələrinin sərmayəçiləri ilə bağlanılan müqavilələrin mexanizminin və şərtlərinin dəyişdirilməsini, investisiya üzrə güzəştlərin genişləndirilməsini, investisiya mühitinin təkmilləşdirilməsi üzrə aşağıda göstərilən azadetmələri nəzərdə tutur:

- mənfəət vergisindən 10 il müddətinə;
- torpaq vergisindən 10 il müddətinə;
- əmlak vergisindən 8 il müddətinə;
- obyekt istismara verildikdən sonra investorun xərclərinin 30%-nin dövlət tərəfindən kompensasiya edilməsi.

Bundan başqa, müqavilə bağlandıqdan sonrakı 10 il ərzində vergi dərəcələrinin (ƏDV və aksizlərdən başqa), ekoloji vergilərin sabit qalacağı, investisiya layihəsinin həyata keçirildiyi və bundan sonrakı 1 il ərzində əcnəbi işçi qüvvəsinin cəlbinə kvota tətbiq edilməyəcəyi nəzərdə tutulur. İnvestorların dövlət sifarişləri alacağına və hüquqlarının investisiya ombudsmanı tərəfindən qorunacağına zəmanət verilir.

# Misirdə vergi islahatları keçirilir

*Misir Ərəb Respublikası (MƏR) hakimiyyəti bildirib ki, əlavə yığımın həcmi gəlirin 5%-i miqdarında olacaq.*

Ölkənin Prezident Administrasiyasının nümayəndəsi İhab Badavinin sözlərinə görə, 3 illiyə nəzərdə tutulmuş yeni vergi müvəqqətidir və hökumətin apardığı vergi islahatları çərçivəsində tətbiq olunur. Hazırda Misir hökuməti çətin vəziyyətdədir: əhalisi 85 mln. nəfər olan ölkədə büdcə kəsiri ÜDM-in 14%-i həcmindədir. MƏR hökuməti malların əsas qruplarına subsidiya verilməsinin dayandırılması səbəbindən də təzyiq altındadır. Bu subsidiyalar büdcənin təxminən 20%-ni təşkil edirdi və hökumət onların aradan qaldırılması nəticəsində yeni etiraz dalğasının yayılmasından ehtiyatlanır. Qeyri-sabitlikdən yorulan ölkə və xarici investorlar iqtisadi islahatların aparılmasında Abdel Fəttah əl-Sisiyə böyük ümidlər bəsləyir. Xatırladaq ki, may ayında Misirdə keçirilən prezident seçkisində ölkənin sabiq müdafiə naziri feldmarşal Əbdül Fəttah əl-Sisi qalib gəlib.

Qahirə şəhərində baş verən iğtişaşlar və Sinayda terror aktları nəticəsində xeyli zərər çəkən Misir dövləti turizmdən əldə edilən gəlirləri artırmaq üçün yeni üsul təklif edib. Əvvəllər misirlilər turistlərin gətirdikləri valyutanın ölkədə xərclənməsinə üstünlük verdikləri halda, indi xarici ölkələrə səfərə gedənlərdən də vergi tutmaq qərarına gəliblər. Təyyarə ilə Misirdən getmək üçün alınan biletin qiymətinə əlavə olaraq 25 dollar ödənilməlidir və bu vergi bütün aviaşirkətlərə tətbiq edilir.

Son 3 ildə Misirin turizm biznesinə ciddi ziyan dəymişdir: 2010-cu ildə ölkəyə 14 milyon turist gəlmişdisə, 2011-ci ildə bu rəqəm 9,6 milyona, 2013-cü ildə isə 9,5 milyona qədər azalmışdır.



Xarici ölkələrin təcrübəsi:

# Çex Respublikasının vergi sistemi: *mənfəət vergisi*

Mərkəzi Avropada yerləşən Çex Respublikası «soyuq müharibə»dən sonra bazar iqtisadiyyatı inkişaf yoluna qədəm qoymuş və hazırda Avropanın iqtisadi baxımdan ən uğurla inkişaf edən dövlətlərindən biridir. Ölkədə 2012-ci ildə ÜDM 785,7 mlrd. dollar, adambaşına düşən ÜDM 26706 dollar olmuşdur. Minimum əməkhaqqı həftədə 40 saatlıq iş rejimi üçün aylıq 8500 krona (434 dollar), saatlıq 50,6 krona (2,6 dollar) həcmində müəyyən edilmişdir. 2012-ci ildə Çexiyada ümumi vergi daxilolmalarının həcmi 29,8 mlrd. dollar olmuşdur ki, bunun 41,8%-i birbaşa vergilər, 47,6%-i isə dolayı vergilərin payına düşür.




Ölkədə vergilərin tam və vaxtında yığılmasına nəzarət edən Çex Respublikasının Baş Maliyyə Direktorluğu vergi növləri, funksional və iri vergi ödəyiciləri kriteriyaları üzrə 2011-ci ildə təsis edilmişdir. Direktorluğun tərkibində Baş Maliyyə Direktorluğun Apellyasiyası, Xüsusiləşmiş Vergi Orqanı (6 ərazi bölməsi), 14 regional vergi orqanı, regional vergi orqanlarının tərkibinə daxil olan 201 ərazi vergi şöbəsi fəaliyyət göstərir.

2012-ci ildə vergi ödəyicilərinin sayı 7440 min, ƏDV ödəyicilərinin xüsusi çəkisi 10,4% olmuşdur. Vergi əməkdaşlarının sayı 14710 nəfər təşkil edir .

***Mənfəət vergisi:*** Çexiya müəssisələrin mənfəətinə modifikasiya edilmiş klassik vergitutma sistemi tətbiq edir. Prinsipcə, müəssisənin mənfəəti həm müəssisə, həm də səhmdarlar səviyyəsində vergiyə cəlb edilir. Səhmdarlar səviyyəsində dividendlərdən yalnız ödəmə mənbəyində yekun vergi tutulur. Səhmdar müəssisələrinə ödəmə mənbəyində vergidən azadolma tətbiq edilə bilər. Mənfəət vergisinə hüquqi şəxslər, xüsusilə səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər və kooperativ müəssisələr cəlb edilir.

Müəssisə Çex Respublikasında hüquqi ünvan və ya idarəetmə yerinə malikdirsə, rezident hesab edilir. Rezident müəssisələr vergiyə dünyadakı gəlirləri üzrə cəlb olunurlar. Xüsusi qaydaların tətbiq edildiyi hallar istisna olmaqla, istənilən növ fəaliyyətdən və ya əmlakın təqdim edilməsindən əldə olunan gəlir mənfəət vergisinə cəlb edilir. Vergiyə cəlb edilən gəlir - məcmu gəlirlə onun əldə edilməsinə çəkilmiş xərclər arasındakı fərqdən ibarətdir.

Vergidən azad olunan gəlirə müəyyən dividend və kapital gəlirləri və artıq ödənilmənin vergi və ya sosial sığorta orqanlarının səhvindən baş verdiyi halda, artıq ödənilmiş vergi və ya sosial sığorta ayırmalarına hesablanmış faizlər daxildir.

Bir qayda olaraq, vergi tutulan gəlirin yaranması, qorunması və saxlanılması məqsədilə çəkilmiş xərclər gəlirdən çıxılmayan xərclər siyahısına daxil edilməmişdirsə, vergi tutulan gəlirdən çıxılır.

Gəlirdən çıxılan xərclərə amortizasiya güzəştləri, satılmış amortizasiya olunan aktivlərin qalıq dəyəri, müəyyən hədlər daxilində işgüzar səfərlərlə əlaqədar çəkilmiş xərclər və işçilərin müvəqqəti yaşayış yeri xərcləri, işəgötürənin ödədiyi mükafatlar və sosial sığorta ayırmaları, işçilərin sağlamlığı və sosial rifahı naminə çəkilmiş xərclər, sığorta mükafatları, icarə ödənişləri aiddir.

Gəlirdən çıxılmayan xərclərə aşağıdakılar aid edilir:

- vergiyə cəlb edilməyən gəlirə aid xərclər;
- müəssisənin səhmdar kapitalına səhm və ayırmaların alış qiyməti;
- əyləncə və şəxsi xərclər;
- müəyyən pul cəzaları və cərimələr.

Çex Respublikasında mənfəət vergisinin dərəcəsi Avropada ən aşağı dərəcələrdəndir. Ölkədə mənfəət vergisinin ümumi dərəcəsi 19%-dir. İnvestisiya, qarşılıqlı və pensiya fondlarının (digər Aİ üzvü ölkələrdə, Norveç və İslandiyada təsis edilənlər daxil olmaqla) mənfəəti xüsusi 5% dərəcə ilə (1 yanvar 2015-ci ildən 0% dərəcə ilə) vergiyə cəlb edilir.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**

1.Xocalı rayonunda kənd; 2.Dildə və ya dialektdə işlədilən sözlərin məcmusu; 3.Balaca kisə; 4.Düşmənə zərbə endirmək məqsədilə qoşunların və ya donanmanın bir yerdən başqa yerə hərəkəti və bir yerə toplanması; 5.Poçt ödənişinin nişanı; 6.Şotlandiyanın şimal-qərbində şəhər; 9.Açıq-qəhvəyi rəngli təbii boya; 13.Qadın adı, lüğəti mənası Ayın kənarındakı haləni ifadə edir; 15.Əllə toxunan dekorativ təsviri sənət növü, konkret süjet olan birüzlü xalça; 16.Qədim Misir mifologiyasında başı insan, bədəni şir olan qoruyucu tanrı; 17.Kimyəvi tərkibi və molekulyar çəkisi eyni, fiziki və kimyəvi xassələri isə başqa-başqa olan kimyəvi birləşmə; 18.ABŞ-da ştat; 20.Sinir sisteminin və əzələ toxumalarının yorğunluq törətməyən uzunmüddətli qıcıqlanması (fəaliyyəti); 21.Qərb yarımkürəsində tropik dəniz.

**Soldan sağa:**

1.Baleti sevən şəxs; 5.Rusiyada istehsal olunan təyyarə markası; 7.Elmi, fəlsəfi və ya siyasi təlim; 8.Simli musiqi aləti; 10.«Telefonçu qız» filmində (1962) Mehriban obrazını canlandırmış Ukrayna aktrisasının adı; 11.«Mimino» filmində (1977) təyyarəçi Valiko Mizandari obrazını canlandıran aktyorun və populyar müğənninin adı; 12.Abşeron rayonunda qəsəbə; 14.Xortum kimi burnu və liravari buynuzları olan gövşəyən qoşadırnaqlı heyvan, antilopun bir növü; 19.Maye, bərk və ya qazvari maddələrin işığın təsiri altında parçalanması prosesi; 21.«Məhəllə» filmində Südabə xala obrazını canlandırmış aktrisanın adı; 22.Qohumluq dərəcəsi; 23.ABŞ-ın cənubunda şəhər; 24.Qulağa gələn, eşidilən səda; 25.Qədim ispan xalq rəqsi.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kanada; 2.Rotonda; 3.Ekran; 4.Truppa; 5.Plaun; 6.Brınza; 9.Alma 13.Mone *(Klod)*; 15.Vermont; 16.Kliçko *(Vitali)*; 17.Kabare; 18.Lamark *(Jan Batist)*; 20.Volqa; 21.Ştamm.
**Soldan sağa:** 1.Korrektor; 5.Pab; 7.Notarius; 8.Bakı; 10.Dünən; 11.Polonez; 12.Çalma; 14.Halva; 19.Lavanda; 21.Şirma; 22.Çili; 23.Parabola; 24.Oba; 25.Fleqmatik.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

## idman

# Azərbaycan güləşçilərinin növbəti uğuru



*Polşanın Katovitse şəhərində gənclər arasında güləş üzrə Avropa çempionatı başa çatmışdır. Azərbaycan güləşçiləri çempionatda ümumilikdə 4 qızıl, 2 gümüş və 2 bürünc medala sahib olmuşlar.*

İlk olaraq çempionatda mübarizəyə başlayan sərbəst güləşçilərimiz 1 qızıl və 1 gümüş medal qazanmışlar. Nurməhəmməd Hacıyev (84 kq) bütün rəqiblərindən üstün olmuş və fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Murad Süleymanov (66 kq) isə gümüş medalla kifayətlənmişdir. Yığmamız komanda hesabında 5-ci sırada qərarlaşmışdır.

Gənc qızlardan ibarət yığma komandamızın üzvləri isə 1 gümüş və 2 bürünc medala sahib olmuşlar. Elmira Qəmbərova (63 kq) yalnız final görüşündə uduzmuşdur. Türkan Nəsirova (44 kq) və Raqnetta Qurbanzadə (67 kq) isə bürünc medal qazanmışlar. Bu nəticə ilə yığmamız komanda hesabında 5-ci olmuşdur.

Çempionatın son iki günündə mübarizəyə qoşulan yunan-Roma güləşi üzrə yığma komandamızın üzvləri isə daha yaxşı çıxış edərək 3 qızıl medal qazanmışlar. İbrahim Nurullayev (50 kq), Murad Məmmədov (55 kq) və İslam Abbasov (84 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşmışlar.

Ümumilikdə 45 xal toplayan Azərbaycan yığması komanda hesabında Rusiya və Gürcüstandan sonra üçüncü pillədə qərarlaşmışdır.

# Avropa kubokları uğrunda yarışların püşkü atıldı

*İyunun 23-də İsveçrənin Nyon şəhərində UEFA Çempionlar Liqasının I və II təsnifat mərhələlərinin püşkatma mərasimi keçirilib.*





Azərbaycan Premyer Liqasının 2013-2014-cü illər üzrə qalibi olan Ağdamın «Qarabağ» klubunun II təsnifat mərhələsindəki rəqibinin kimliyinə aydınlıq gəlib: bu, Maltanın «Valletta» komandasıdır. Aktivində 7,575 xal olan «Qarabağ» klubu püşkatma zamanı səpələnmişlər səbətində yer alıb ki, bu da ilk dəfə Çempionlar Liqasında iştirak edəcək Ağdam təmsilçisinin nisbətən zəif rəqiblə qarşılaşmasına şərait yaradıb.

Qeyd edək ki, Çempionlar Liqasının birinci təsnifat mərhələsinin ilk oyunları iyulun 1-2-də, cavab matçları isə bir həftə sonra keçiriləcək. İkinci təsnifat mərhələsinin ilk görüşləri iyulun 15-16-da, cavab qarşılaşmaları isə iyulun 22-23-də oynanılacaq.

Həmin gün UEFA Avropa Liqasının birinci və ikinci təsnifat mərhələsinin də püşkü atılıb. İsveçrənin Nyon şəhərində təşkil olunan tədbirdə Avropanın 119 klubunun rəqibi müəyyənləşib.

Mübarizəyə ikinci mərhələdən qoşulacaq Bakının «Neftçi» futbol komandası püşkün nəticəsinə əsasən ilkin təsnifat mərhələsinin «Koper» (Sloveniya) - «Celik Nikşiç» (Monteneqro) cütlüyünün qalibi ilə görüşəcək.

İlkin təsnifat mərhələsində mübarizə aparacaq «İnter» (Bakı) Moldovanın «Tiraspol», «Qəbələ» isə Bosniya və Herseqovinanın «Şiroki Briyeq» komandası ilə qarşılaşacaqlar.

«İnter» bu mərhələni adlayacağı təqdirdə, növbəti oyunlarını İsveçin «Elfsborq», «Qəbələ» ikinci təsnifat mərhələsinə yüksələcəyi halda Çexiyanın «Mlada Boleslav» komandasına qarşı keçirəcəklər.

Xatırladaq ki, ilkin təsnifat mərhələsinin oyunları iyulun 3-də və 10-da, ikinci mərhələnin qarşılaşmaları isə iyulun 17-də və 24-də keçiriləcək.

# Gənc velosipedçilərimiz Almaniyada

***Ölkəmizin şose velosipedi üzrə gənclərdən ibarət yığma komandasının 5 üzvü iyunun 20-22-də Almaniyanın Karlsberq şəhərində keçirilən turnirdə iştirak edib.***

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) təqvim planında «Millətlər Kuboku» adı altında yer alan yarışın 2-ci mərhələsi kimi xarakterizə olunan və «Trofeo Karlsberg» adlanan yürüşdə idmançılarımız ümumilikdə 286 km məsafə qət ediblər.

Yarışın 1-ci mərhələsində velosipedçimiz Elgün Əlizadə 107 iştirakçı arasında 17-ci, 2-ci mərhələdə isə 16-cı olub. Sonuncu yarış günü iştirakçılar çətin yollarla 100 km məsafə qət ediblər ki, burada da yığma komanda üzvlərimizdən mərhələni ən tez başa vuran Elgün Əlizadə olub.

Beləliklə, 3 mərhələnin yekununa əsasən, turnirin qalibindən 6 dəqiqə 32 saniyə geri qalan E.Əlizadə 107 velosipedçi arasında 45-ci yeri tutub.

## mozaika

maraqlı

# Tokioda unikal kosmos muzeyi açılacaq



*Tokionun mərkəzi hissəsində 9 tematik zonadan ibarət kosmos muzeyinin təntənəli açılışı nəzərdə tutulur. Obyektin açılışı iyul ayının əvvəli üçün planlaşdırılır. Turistlər Kainatın sirlərinə həsr edilmiş yeni muzeyə tamaşa edə biləcəklər.*

Muzeyin birinci zalında tamaşaçılara bəşəriyyətə məlum olan Kainatın antik dövrdən zəmanəmizə qədər inkişafı prosesini nümayiş etdirən unikal üçölçülü xəritələrlə tanış olmaq imkanı təklif ediləcəkdir.

Muzeyin digər zalına gələnlər doğma Yer planetini sanki kosmosdan müşahidə edəcəklər. Tamaşaçılarda elə təsəvvür yaranacaqdır ki, guya onlar orbitdədirlər. Muzeyin oyun zonasında tamaşaçılar «öz əlləri ilə peyk buraxmağı» sınaqdan keçirmək imkanı qazanacaqlar.

# Qədim məbəd yağıntını qabaqcadan xəbər verir

*Hindistanın Uttar-Pradeş ştatının Behata kəndində qeyri-adi məbəd vardır. Uzun illərdir ki, kəndlilər bu məbədin tavanında əmələ gələn su damcılarına görə qarşıdakı mövsümdə düşəcək yağıntının miqdarı barədə məlumat alırlar.*

İndiyədək insanlar bilmir ki, bu su damcıları necə yaranır: ətrafda heç bir sututar yoxdur, məbəd isə yüksəklikdə yerləşir.

«Mussonlar məbədi» deyilən bu ibadətxananın 100-dən çox yaşı var. Yaxın və uzaq kəndlərin sakinləri hər gün buraya ibadət etməyə gəlirlər. Tavandan damcılayan suyu hamı görə və buna uyğun yağıntının çox, yaxud az olacağını müəyyən edə bilir. Yerli sakinlər deyirlər ki, əgər tavandan az damcı düşürsə, deməli, yağıntı az olacaq, çox damcı düşürsə, güclü yağışlar yağacaq. Sakinlərin sözlərinə görə, bu məbədin «dediyi həmişə düz çıxır».

Hindistanda yağışlar mövsümü iyun ayından sentyabradək davam edir və bu yağıntılar yerli kənd təsərrüfatı sahələri üçün çox böyük əhəmiyyət daşıyır. Bu sahələrin 55%-nin başqa suvarılma mənbəyi yoxdur.

Bu yerlərə Hindistanın müxtəlif guşələrindən çoxlu tədqiqatçı və alimlər gəlmişlər. Onlar hamısı bu qeyri-adi hadisənin izahını verməyə cəhd göstərsələr də, hələ ümumi qənaətə gələ bilməmişdir.

tam ciddi

# Messinin vergi borcu

***«Barselona» klubunun və Argentina yığmasının məşhur futbolçusu Lionel Messi İspaniya vergi orqanları ilə əldə etdiyi razılaşmaya əsasən, bu ölkənin xəzinəsinə 32,9 milyon avro vəsait ödəməyəcək.***

Əslində, Messinin vergi borcu 4,1 milyon avro olub və bunun üzrərinə 2,7 milyon avro penya hesablanılıb. Qalan məbləğ - 25 milyon avro isə cərimədir. Bundan bir qədər əvvəl məhkəmə müəyyən etmişdi ki, Messinin özü maliyyə fırıldağında birbaşa iştirak etməyib. Vəziyyətin bu həddə çatmasında onun şəxsi nümayəndələri, o cümlədən atası günahkardır. Ona görə də Messi cinayət məsuliyyətindən azad olunmuşdu.

Qeyd edək ki, son müqaviləsinə əsasən, Messi qarşıdakı dörd il ərzində «Barselona» klubundan hər il 20 milyon avro alacaq. Onun reklam gəlirləri isə ildə 15 milyon avro təşkil edir.

texnologiya

# «Zəmanə xəstəliyi»

Elm və texnologiya nailiyyətlərinin insanların gündəlik məişətinə daxil olması həyatı asanlaşdırmaqla yanaşı, müəyyən problemlər də gətirir, bəzən isə xəstəlik həddinə çatır. Sosial şəbəkələrdə həddən artıq vaxt keçirən, əllərindən smartfon düşməyən və sürəkli olaraq gözlərini smartfonun displeyinə zilləyib nə isə yazan, şərh edən, paylaşan insanların belə davranışını psixoloqlar «sosial şəbəkə xəstəliyi» adlandırırlar. Bu cür fanatik tutqunluğun müalicəsi çox çətindir. Qadınlar bu xəstəliyə daha həssasdırlar.

İndi yeni «zəmanə xəstəliyi»nin çarəsi axtarılır. Artıq 3D printer vasitəsilə xüsusi paltar çap edilmişdir. Ekspertlərin rəyinə görə, onu geyinməklə sosial şəbəkələrdə çox vaxt keçirməyin qarşısı alına bilər. Paltar reaktiv displeylərdən ibarətdir və geyimin arxa hissəsindəki mikrokompüter vasitəsilə «idarə» olunur. Kompüter paltarı geyinmiş adamın onlayn aktivliyini izləyir. Əyninə bu paltar olan şəxs sosial şəbəkələrdə nə qədər çox aktiv olarsa, geyimdəki reaktiv panellər bir o qədər şəffaflaşır. Aktivlik ifrat olarsa, paltar tam şəffaf hal alır və əynində bu geyim olan qadın çılpaq təsir bağışlayır.

«X.pose» adlı bu paltarın müəllifləri Nyu-York Universitetinin alimləri Pedro Oliveyra və Çjuedi Çedir





# Görünməz göydələn

*Cənubi Koreya hökuməti dünyada ilk gözəgörünməz göydələnin tikintisi üçün «The Korean Land and Housing Corporation» şirkətinə icazə vermişdir.*



Infinity Towera adlandırılan bina Seul şəhərində Beynəlxalq aeroporta yaxın ərazidə tikiləcəkdir. Ətraf ərazileri şüşədən olan fasadda əks etdirilməsi üçün göydələn işıq diodlarından və kameralardan ibarət xüsusi sistemlə təchiz olunacaqdır.

Əslində, göydələn sözün həqiqi mənasında görünməz olmayacaqdır. Hündürlüyü 450 metr təşkil edən bina yalnız ona müəyyən nöqtədən baxdıqda «əriyəcəkdir». Digər hallarda göydələn adi binа təsiri bağışlayacaqdır.

**Müdriklər deyib ki...**

***«Döyüşən uduza bilər, döyüşməyən isə çoxdan uduzmuşdur».***

***Çe Gevara***

